RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 61 (8377) CÜMƏ AXŞAMI, 19 mart 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Azərbaycanda dəmir yolunun müasirləşdirilməsi istiqamətində çox mühüm layihələr həyata keçirilib

## Abşeron dairəvi dəmir yolunun Pirşağı-Görədil-Novxanı-Sumqayıt hissəsinin yenidənqurmadan sonra açılışı olub

**Martın 18-də Abşeron dairəvi dəmir yolunun Pirşağı-Görədil-Novxanı-Sumqayıt hissəsinin yenidənqurmadan sonra açılışı olub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

Dövlət başçısı Pirşağı stansiyasından qatarla Görədil dayanacağına yola düşdü.

Yenidən qurulan Pirşağı-Görədil-Novxanı-Sumqayıt sərnişin xəttinin açılışı ilə Abşeron dairəvi dəmir yolu tam istismara verilir. Belə ki, Bakı sərnişin-Keşlə-Koroğlu-Bakıxanov-Sabunçu dəmir yolu xətti ötən ilin mayında, Sabunçu-Zabrat 1-Zabrat 2-Məmmədli-Pirşağı dəmir yolu xətti isə ötən ilin noyabrında artıq istismara verilib. Abşeron dairəvi dəmir yolu xəttinin istismar uzunluğu 91, stansiya yolları ilə birlikdə ümumi uzunluğu isə 198 kilometrdir.

Sonra Prezident İlham Əliyev Görədil dayanacağına gəldi.

Dövlət başçısına görülən işlər barədə məlumat verildi. Burada Görədildə yaşayan əhalinin dəmir yolu xidmətlərindən yüksək səviyyədə istifadə etməsi və onların rahatlığı üçün hər cür şərait yaradılıb. Bina bütün zəruri infrastrukturla təchiz olunub. Buradakı platformalar da ən müasir səviyyədə yenidən qurulub.

Görədil-Novxanı-Sumqayıt sərnişin xətti boyu, ümumilikdə, 15 stansiya və dayanacaq inşa edilib və əsaslı təmir olunub. Yenidən qurulan Görədil dayanacağının ümumi sahəsi 6300, Novxanı dayanacağının ümumi sahəsi isə 8 min kvadratmetrdən çoxdur. Xətt boyu yerləşən bütün dayanacaqlarda yeni platformalar, yeraltı piyada keçidləri, avtomobillər və velosipedlər üçün dayanacaqlar inşa edilib. Pirşağı-Görədil-Novxanı-Sumqayıt sərnişin dəmir yolu xətti istiqamətində 3 avtomobil tuneli və 8 piyada keçidi layihələndirilib.

Daha sonra dövlət başçısı Görədil dayanacağından Novxanı dayanacağına yola düşdü.

Qatarların hərəkətinin təhlükəsizliyini təmin etmək məqsədilə xətt üzərində 10 yeraltı avtomobil tuneli tikilib, ikisinin isə inşası davam edir. Piyadaların təhlükəsizliyini təmin etmək üçün ümumilikdə 25 yeraltı və yerüstü piyada keçidi inşa olunub, dəmir yolu, rabitə və işarəvermə sistemi yenidən qurulub. Sürətli qatarın hərəkətinin təhlükəsizliyini təmin etmək üçün zəruri işlər görülüb.

Dövlət başçısı Novxanı dayanacağına gəldi.

Novxanı dayanacağında da sərnişinlərin rahatlığı üçün bütün zəruri şərait var. Bu dayanacaq da yenidənqurmadan sonra ən müasir səviyyədə fəaliyyət göstərəcək. Ətrafda geniş abadlıq-quruculuq, yaşıllaşdırma işləri görülüb, işıqlandırma sistemi yaradılıb.

Prezident İlham Əliyev burada Abşeron dairəvi dəmir yolunun Pirşağı-Görədil-Novxanı-Sumqayıt hissəsinin yenidənqurmadan sonra rəmzi açılışını bildirən lenti kəsdi.

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov Abşeron dairəvi dəmir yolu xəttində aparılan yenidənqurma işləri və perspektiv layihələr barədə məlumat verdi.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Əhalinin sosial məsələlərinin həllinə, onların sosial rifahının daha da yaxşılaşdırılmasına dövlət səviyyəsində xüsusi diqqətlə yanaşılır və bununla bağlı ardıcıl layihələr icra olunur. Ölkəmizdə, ümumilikdə, sosial infrastrukturun yenilənməsi istiqamətində həyata keçirilən işlər dünyada bu sahədə tətbiq olunan ən müasir standartlara cavab verir. Son illərdə Prezident İlham Əliyevin tapşırıqlarına əsasən Azərbaycanda dəmir yolunun müasirləşdirilməsi istiqamətində də çox mühüm və ardıcıl layihələr həyata keçirilib. Bu, ölkəmizin iqtisadi potensialını nümayiş etdirməklə yanaşı, Azərbaycanda dövlət səviyyəsində sosial sahəyə olan diqqəti də aydın göstərir.

*Ardı 2-ci səh.*



# Mehriban ƏLİYEVA: "Əminəm ki, müdrik xalqımızın ən gözəl xüsusiyyətləri sayəsində biz birlikdə bu ciddi çağırışın öhdəsindən gələcəyik"

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva koronavirus infeksiyası ilə bağlı xalqımıza müraciət edib.

AZƏRTAC müraciəti təqdim edir:

"Dünya qlobal çağırışla üz-üzədir. Hələ bir il bundan əvvəl bizim əksəriyyətimiz sadəlövhcəsinə güman edirdik ki, pandemiya, bu günədək bəlli olmayan və insan həyatına son qoyan təhlükəli xəstəliklər dövrü keçmişdə qalıb.

İnanırdıq ki, biologiya elminin, tibbin, əczaçılığın və texnologiyaların müasir inkişaf səviyyəsi, o cümlədən bəşəriyyətin kollektiv intellekt səviyyəsi bizi müəyyən "sürprizlərdən" sığortalayıb. Reallıq isə fərqli oldu. Nassem Talebin müzakirələrə səbəb olan "Qara qu quşu" dünyada hökm sürür. Müəllif öz məşhur kitabında yazır: "Hamı özünü təhlükədən qorumaq istəyir. Üsullardan biri - riskləri qiymətləndirmək və onları idarə etməkdir... Bizim nə qədər səy göstərməyimiz vacib deyil. Hər hansı bir riski dəqiqliklə proqnozlaşdırmaq qeyri-mümkündür".

"COVID-19" barədə kifayət qədər məlumat var. Yeni virus və ona yoluxmanın bütün fəsadları real zaman rejimində əsas dünya informasiya trendidir. Paradoksaldır, amma informasiya bolluğuna baxmayaraq, suallar cavablardan daha çoxdur.

Ümumdünya Səhiyyə Təşkilatının rəsmi statistikasına görə, dünyada virusa yoluxanların sayı 198 737 nəfər, həlak olanların sayı 7989 nəfər, sağalanların sayı 82 779 nəfərdir. Pandemiya elan olunan epidemiya 167 ölkədə yayılıb.

Təkzibolunmaz faktdır ki, dünya belə riskə hazır deyildi. Hətta səhiyyə sahəsində büdcələri milyardlarla ölçülən, nəhəng elmi-intellektual potensiala, qabaqcıl texnologiyalara malik ən inkişaf etmiş ölkələr belə epidemiyanın yayılmasının qarşısını ala bilmədilər.

Misilsiz tədbirlər görülür, sərhədlər bağlanır, dövlətlər təcrid olunur.

İnanıram və ümid edirəm ki, ümumi səylərimiz mütləq nəticə verəcək. Bəşəriyyət bu çağırışın öhdəsindən gələcək və daha da güclənəcək. Həmçinin ümid edirəm ki, biz sadə həqiqətlər barədə düşünüb onları yenidən dərk etməyə çalışacağıq. Biz biri-birimizdən fərqliyik, amma evimiz birdir. Özgə dərd olmur. Ağrı və iztirablar sərhəd tanımır.

Virusa qarşı immunitet vaksin tapıldıqdan sonra yaranacaq. Biganəliyə qarşı immuniteti isə hər kəs özündə formalaşdırmalıdır.

Əziz həmvətənlər!

Ölkəmizdə bütün qüvvələr hadisələrin ən pis yöndə inkişafının qarşısının alınmasına səfərbər olunub. Bütün dövlət strukturları mobilizasiya olunub və birgə fəaliyyət göstərir. Biz ilk gündən Ümumdünya Səhiyyə Təşkilatı ilə sıx əməkdaşlıq edir və bu qurumun tövsiyələrinə çox ciddi yanaşırıq.

Epidemiyanın sürətlə yayılması, onun pandemiyaya çevrilməsi bu xəstəliklə mübarizədə vahid strategiya və taktikanın hazırlanmasını çətinləşdirir. Virusun və xəstəliyin tədqiqatı onlara qarşı mübarizə ilə eyni vaxtda aparılır.

Buna görə də bir çox tövsiyələr situativ xarakter daşıyır və məlumat bazası genişləndikcə dəyişir. Aydın olan odur ki, təhlükəsizlik tədbirlərinə ciddi riayət edilməsi, şəxsi məsuliyyət və intizamlılıq özünüzü və ətrafınızdakıları qorumağın əsas şərtləridir.

Koronavirus epidemiyası ilə mübarizədə Azərbaycan dövləti ilə sıx əməkdaşlığa görə Ümumdünya Səhiyyə Təşkilatına minnətdarlığımı bildirirəm.

Bütün həmvətənlərimizi vətəndaş məsuliyyəti nümayiş etdirməyə, Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyə və tələblərinə ciddi riayət etməyə çağırıram.

Hamınızdan xahiş edirəm, öz böyüklərinizi qoruyun! Virusa yoluxmuş insanların mütləq əksəriyyətində xəstəlik yüngül formada keçir və sağalma ilə nəticələnir. Daha çox yaşlı nəslin nümayəndələri, xroniki xəstəliklərdən əziyyət çəkənlər, immuniteti zəif olanlar xüsusi risk qrupuna aiddir.

Biz, azərbaycanlılar həmişə böyüklərimizə xüsusi qayğı və hörmətlə yanaşmışıq, onları həssaslıqla qorumuşuq. Əminəm ki, üzləşdiyimiz bu vəziyyətdə biz daha diqqətli olacağıq. Bu gün laqeydlik yolverilməzdir.

Bu gün infeksiya ilə mübarizədə ön cəbhədə olanların, Azərbaycan vətəndaşlarının sağlamlığını və həyatını qorumaq üçün bütün lazımi tədbirləri görənlərin hər birinə - həkimlərə, tibbi personala, müxtəlif dövlət qurumlarının əməkdaşlarına xüsusi minnətdarlığımı bildirmək istəyirəm.

Əziz dostlar!

Əminəm ki, müdrik xalqımızın ən gözəl xüsusiyyətləri - ruh yüksəkliyi və mərdlik, mərhəmət və şəfqət, inam və məhəbbət sayəsində biz birlikdə bu ciddi çağırışın öhdəsindən gələcəyik. Sizə möhkəm cansağlığı və uzun ömür arzulayıram!

Ulu Tanrı bu çətin gündə hamıya kömək olsun.

*Hər birinizə dualar və sevgi ilə,*

**Sizin MEHRİBAN".**

## Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə və profilaktika tədbirlərində iştirak edən tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə əlaqəli əmək şəraitinə görə dövlət tibb müəssisələrində çalışan işçilərin əməkhaqlarına aylıq vəzifə (tarif) maaşının 3-5 mislinədək miqdarda müddətli əlavə müəyyən edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. bu Sərəncamın 1-ci hissəsi ilə müəyyən edilən müddətli əlavənin şamil olunacağı tibb işçilərinin əhatə dairəsini, əlavənin ödənilmə müddətini və işin xüsusiyyətindən asılı olaraq miqdarını müəyyən etsin;

2.2. yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərinə cəlb edilən özəl tibb müəssisələrində çalışan tibb işçilərinin və könüllülərin əməyinin ödənilməsi şərtlərini müəyyən etsin;

2.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 mart 2020-ci il*

## Bakı şəhərinin Nizami rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bakı şəhəri Nizami rayonunun Keşlə qəsəbəsi ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"ndə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün göstərilmiş vəsaitin 850,0 (səkkiz yüz əlli) min manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 mart 2020-ci il*

## 3 ildə 23 pillə yüksəliş

### Prezident İlham Əliyevin mütərəqqi islahatları ilə Azərbaycan Avropa regionunda iqtisadi azadlıq indeksini ən çox yaxşılaşdıran ölkədir

**"İqtisadi azadlıq indeksi-2018" - 186 ölkə arasında 67-ci yer;**
**"İqtisadi azadlıq indeksi-2019" - 186 ölkə arasında 60-cı yer;**
**"İqtisadi azadlıq indeksi-2020" - 186 ölkə arasında 44-cü yer.**

İstənilən ölkədə iqtisadi azadlıq mövcuddursa, dövlət xarici güc və amillərdən asılı olmayaraq xalqın layiqli yaşayışını təmin edir, maddi və mənəvi ehtiyatlarını qorumağa qadir olur. Məhz ölkənin iqtisadi azadlığı şəraitində azad iqtisadiyyat, yəni fəaliyyəti kənar qüvvələrin təsirinə məruz qalmayan sağlam və sərbəst rəqabətə əsaslanan iqtisadiyyat mümkündür. Bu gün Azərbaycanın da adı həmin ölkələr sırasında çəkilir. ABŞ-ın "İrs Fondu"nun hazırladığı "İqtisadi azadlıq indeksi"nə görə Azərbaycanın bu il mövqeyini 16 pillə yaxşılaşdıraraq dünyada 44-cü pilləyə yüksəlməsi deyilənlərin bariz nümunəsidir.

### "İqtisadi azadlıq indeksi"ni ən çox təkmilləşdirən 11 ölkədən biri

Öncə onu vurğulayaq ki, bu indeks artıq 25 ildir hazırlanır. 186 ölkədə mülkiyyət hüquqlarından tutmuş maliyyə azadlığına qədər 12 azadlıq dəyərləndirilir. "İqtisadi azadlıq indeksi" 4 əsas indikator olmaqla, 12 alt-indikatora əsasən formalaşır. "Qanun Aliliyi", "Dövlət payı", "Səmərəli tənzimləmə" və "Bazarların açıqlığı" əsas indekslər (indikatorlar) olmaqla ölkələrin reytinqini formalaşdırır.

*Ardı 2-ci səh.*

## Hökumət qlobal şoklara qarşı tədbirləri gücləndirir

Müasir dünya ağlasığmaz təlatümlər içindədir. Həm ictimai-siyasi, həm də iqtisadi proseslər gərginlik nöqtəsinə çatmışdır. Üzücü münaqişələr və uzun sürən müharibələr ölkələri ağuşuna almış, onları sivil dünyanın aqibətini həll edən proseslərdən təcrid etmişdir. Mövcud çətinliklər azmış kimi, ildırım sürəti ilə inkişaf edən yeni qlobal şoklar yaranmış və bir çox ölkə həlli müşkülə çevrilən siyasi və iqtisadi problemlərin, humanitar fəlakətlərin sınaqlarından keçmək məcburiyyətində qalmışdır.

Koronavirusa yoluxanların sayı yüz minlərlə, ölənlərin sayı isə minlərlə ölçülür. Mahiyyət etibarı ilə planetar fəlakət baş vermişdir. Biz onun qarşısında hətta Avropanın inkişaf etmiş ölkələrinin belə aciz qaldığını görürük. Yalnız İtaliyada ölənlərin sayı 2 min nəfərdən çoxdur. Bunun arxasınca neft bazarında qiymətlərin "çökməsi" baş vermiş və dünya iqtisadiyyatı yeni böhran dalğasıyla üzləşmişdir.

Yeni təhlükələrin Azərbaycana olan təzyiqlərini azaltmaq üçün Prezident İlham Əliyev ciddi addımlar atır, müvafiq göztərişlər verir. Nazirlər Kabinetinin yenidən formalaşması, struktur islahatlarının aparılması, yeni təyinat alan yüksək çinli məmurların qarşısında ciddi tələblərin qoyulması bu istiqamətdə atılan addımlardır.

Artıq Nazirlər Kabineti Prezidentin tapşırıqları əsasında əsas fəaliyyət istiqamətlərini müəyyənləşdirmiş və sistemli surətdə yeni çağırışlara cavab tədbirlərini reallaşdırmaqdadır. İlk olaraq koronavirusun yayılmasının qarşısının alınması istiqamətində ciddi addımlar atılır. Artıq xeyli müddətdir ki, Nazirlər Kabinetinin yanında operativ qərargah ölkə vətəndaşlarının sağlamlığının qorunması üçün fəaliyyət göstərir.

*Ardı 3-cü səh.*

# Azərbaycanda dəmir yolunun müasirləşdirilməsi istiqamətində çox mühüm layihələr həyata keçirilib

*Əvvəli 1-ci səh.*

Görülən işlər nəticəsində Azərbaycanda yaradılan ən müasir yol-nəqliyyat infrastrukturu, ilk növbədə, vətəndaşların rahatlığına xidmət edir. Bu layihələr sırasında Abşeron dairəvi dəmir yolu xəttinin yenidən qurulması böyük əhəmiyyət daşıyır. Bu layihənin reallaşması paytaxt ətrafındakı qəsəbələrdə yaşayan sakinlərin rahat və təhlükəsiz şəkildə şəhər istiqamətinə və geriyə, mənzil başına çatmasına hərtərəfli imkan yaradır.

Dövlət başçısı burada dəmiryolçularla görüşdü.

Qarşıdan gələn bayram münasibətilə dəmiryolçuları təbrik edən **Prezident İlham ƏLİYEV** dedi:

- Sizi qarşıdan gələn Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm, sizə yeni uğurlar arzulayıram. Bakı şəhərinin ən önəmli nəqliyyat layihələrindən biri olan dairəvi dəmir yolu xətti Novruz bayramı ərəfəsində istismara hazırdır. Bu, həm Bakı sakinlərinə, eyni zamanda, Sumqayıt şəhərinin, Abşeron rayonunun sakinlərinə xidmət göstərəcək. Ümumiyyətlə, bu imkandan milyonlarla insan istifadə edəcək. Beləliklə, şəhərimizin və Abşeron yarımadasının ən önəmli nəqliyyat layihələrindən biri olan dairəvi xətt tamamlanıbdır.










Bu xəttin bir tərəfə uzunluğu 91 kilometrdir, amma bütövlükdə 200 kilometrə yaxın dəmir yolu çəkilişi təmin edilmişdir. Bu, bir daha onu göstərir ki, Azərbaycan dövləti belə böyük layihələri həyata keçirməklə öz sosial siyasətini davam etdirir. Çünki bu dairəvi yolun tikintisinə qoyulan xərclər bəlkə də 100 ildən sonra ancaq büdcəyə qayıda bilər. Çünki bizdə dəmir yolu tarifləri çox aşağıdır. Bizim əsas məqsədimiz insanlar üçün gözəl imkanlar, rahat şərait yaratmaqdır.

Bu dəmir yolunun tikintisi, eyni zamanda, şəhər nəqliyyatına da müsbət təsir göstərəcək, tıxaclar, avtomobil yollarına düşən yük azalacaq, Bakı və Sumqayıt şəhərlərinin, Abşeron rayonunun ekoloji vəziyyəti yaxşılaşacaq. Çünki havanı çirkləndirən ən böyük amil nəqliyyat vasitələridir. Avtobuslara tələbat azalacaq, indi müəyyən marşrutlarda fəaliyyət göstərən avtobuslar digər marşrutlara köçürüləcək.

Bütövlükdə Bakı şəhərinin avtobus parkının müasirləşdirilməsi istiqamətində böyük işlər görülüb, ən müasir avtobuslar alınır. Bu il 300 yeni avtobusun gətirilməsi nəzərdə tutulur. Keçən il də 300 avtobus gətirilmişdir. Əlbəttə ki, bütün şəhərimizin və Abşeron yarımadasının nəqliyyat problemləri koordinasiyalı şəkildə həll olunur. Metro, dəmir yolu, avtobuslar, taksilər və bu gün bu baxımdan Azərbaycan qabaqcıl ölkələr sırasındadır.

Vətəndaşlar üçün çox rahat, ikimərtəbəli vaqonlar alınıb gətirilib. Bu vaqonlar dünyanın aparıcı şirkətlərinin istehsalıdır. Ən inkişaf etmiş ölkələrin paytaxtlarında bu vaqonlardan istifadə olunur. Deyə bilərəm ki, bu baxımdan biz bir çox ölkələri qabaqlamışıq. Yəni, kompleks tədbirlər nəticəsində və dövlət investisiya proqramı çərçivəsində aparılan bu işlər artıq tamamilə başa çatıb və dairəvi yol tam istifadəyə verilib.

Şadam ki, dəmiryolçular bu mühüm vəzifənin öhdəsindən şərəflə gəldilər. Dairəvi dəmir yolunun tikintisi ilə bağlı mən iki il bundan əvvəl sərəncam imzalamışam və bu işlər qısa müddət ərzində görülüb. Yolun tikintisi ilə bağlı mənə müntəzəm olaraq məlumat verilirdi. Özüm şəxsən bir neçə dəfə bu yolun tikintisinin müxtəlif mərhələlərində vəziyyətlə maraqlanmışam, işin gedişinə nəzarət etmişəm. Bu, mənim bu yolun müxtəlif mərhələlərdə açılışında altıncı iştirakımdır. Müxtəlif dövrlərdə bu xətt boyunca altı dəfə getmişəm - Pirşağı stansiyası, Sabunçu dəmir yolu vağzalı, Sumqayıt dəmir yolu vağzalı, Bakı dəmir yolu vağzalı və bu gün. Bütün bu qısa açılışlar bir məqsədi güdürdü ki, biz Novruz bayramına qədər xalqımızı sevindirək. Bu, Abşeron yarımadasında yaşayan insanlara bayramqabağı verilən ən böyük hədiyyələrdən biridir. Bu, bir daha onu göstərir ki, Azərbaycan dövləti sosial sahədə öz sözünü deyir. Baxmayaraq buna böyük vəsait tələb olunur, biz bunu edirik ki, insanlar rahat yaşasınlar, iş başına, mənzil başına daha tez çatsınlar və insanların təhlükəsizliyi təmin edilsin. Çünki bəzi hallarda avtomobil yollarında baş verən qəzalar əfsuslar olsun ki, çox ağır fəsadlar törədir. Ona görə təhlükəsizlik, ekoloji tarazlıq, vaxt, rahatlıq baxımından bütün bu amilləri tam təhlil edərək hər kəs bir daha görür ki, bu xəttin nə qədər böyük əhəmiyyəti var.

Bundan sonra da işlər davam etdiriləcək. Mənə bu gün təqdim edilən xəritədə "Azərbaycan Dəmir Yolları" QSC-nin gələcək planları göstərilir. Digər qəsəbələrə, kəndlərə dəmir yollarının çəkilişi nəzərdə tutulur, layihələr hazırlanır. Biz tədricən bu işləri görəcəyik ki, Abşeron yarımadasının əksər qəsəbələri rahat dəmir yoluna sahib olsunlar.

Bütövlükdə nəqliyyat sahəsində işlər yaxşı gedir. Keçən il də yaxşı uğurlarımız olub, bu il də. Həm dəmir yollarının, həm də avtomobil yollarının çəkilişi - bütün bu işlər hesab edirəm ki, ən yüksək səviyyədə aparılır. İndiki şəraitdə əsas vəzifə vaqonların dezinfeksiyasıdır. Bu sahəyə çox böyük diqqət göstərilməlidir. Çünki bütün dünya indi koronavirusdan əziyyət çəkir. Azərbaycan bu istiqamətdə önləyici tədbirlər görmüşdür. Məhz ona görə hazırda ölkəmizdə koronavirusun yayılması o qədər də geniş vüsət almayıb. Ancaq bu, elə bəladır ki, heç bir ölkə özünü tam sığortalanmış hesab edə bilməz. Hətta ən inkişaf etmiş ölkələrdə indi yaşanan böhran göz qabağındadır. Ona görə hər bir vətəndaş məsuliyyətli olmalıdır, öz şəxsi gigiyenasına fikir verməlidir. Eyni zamanda, ictimai işlərlə, ictimai nəqliyyatla məşğul olan qurumlar da bu işləri tam məsuliyyətlə görməlidirlər, tam dezinfeksiya aparılmalıdır ki, yoluxma hallarının sayı çox olmasın.

Əlbəttə ki, hazırda bizim sərhədlərimiz bağlıdır. Ancaq yükdaşımalar üçün heç bir ölkə öz sərhədini bağlamayıb. Ona görə yükdaşımalar istiqamətində bizim işlər davam etdiriləcək. Əminəm ki, dövlətimiz və xalqımız bu sınaqdan da üzüağ çıxacaqdır.

Sizi bir daha ürəkdən təbrik edirəm, sizə yeni uğurlar arzulayıram. Sağ olun.

❖ ❖ ❖

**Cavid QURBANOV:** Cənab Prezident, bizə göstərdiyiniz qayğıya görə dəmiryolçular adından Sizə təşəkkür edirik.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

## Milli Məclisin Sədri koronavirusla mübarizə ilə əlaqədar parlamentdə görüləcək tədbirlər haqqında sərəncam imzalayıb

**Martın 18-də Milli Məclisin Sədri Sahibə Qafarova koronavirus (COVID-19) infeksiyasına qarşı mübarizə ilə əlaqədar Milli Məclisdə həyata keçirilməsi zəruri hesab olunan tədbirlər haqqında sərəncam imzalayıb.**

Milli Məclisin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, sərəncamda aşağıdakı məsələlər öz əksini tapıb:

- Milli Məclisin komitə və komissiyalarının iclaslarının, Milli Məclis Aparatının və İşlər İdarəsinin toplantılarının keçirilməsi müvəqqəti dayandırılsın, idarəetmə yalnız telefon (selektor) rabitəsi, mobil və internet rabitəsi vasitəsilə həyata keçirilsin;
- Milli Məclis deputatlarının və əməkdaşlarının ezamiyyətləri və xarici ölkələrə səfərləri müvəqqəti dayandırılsın;
- Milli Məclis Aparatının Vətəndaşların qəbulu və müraciətləri ilə iş şöbəsinə tapşırılsın ki, Milli Məclisdə vətəndaşların qəbullarının keçirilməsini müvəqqəti dayandırsın;
- Milli Məclis deputatlarının köməkçiləri seçki dairələrində seçicilər ilə birbaşa təmasda olmadan onların müraciətlərini internet və telefon rabitəsi vasitəsilə qəbul etsinlər;
- Milli Məclis Aparatının rəhbərinə və İşlər müdirinə tapşırılsın ki, öhdəsində azyaşlı uşağı olan qadınların iş davamiyyətinə güzəştli şərtlər tətbiq etsinlər;
- İşçilərdə və ya onların ailə üzvlərindən birində respirator xəstəlikləri, halsızlıq və digər oxşar hallar olduğu təqdirdə həmin işçilərin rəhbərliyə məlumat verməklə tam sağalanadək işə çıxmaması tövsiyə edilsin;
- Milli Məclis Aparatının və İşlər İdarəsinin əməkdaşları iş günü ərzində xüsusi ehtiyac olmadan iş otağını tərk etməsinlər, zərurət olmadan digər şəxslərlə təmasda olmasınlar;
- Milli Məclis Aparatının və İşlər İdarəsinin əməkdaşları virusun yayılmasının qarşısını almağa kömək edəcək ehtiyat tədbirləri görsünlər, o cümlədən həkim məsləhətlərinə və sanitar-gigiyena qaydalarına ciddi riayət etsinlər;
- Milli Məclisin tibb məntəqəsinə tapşırılsın ki, virusun yayılmasının qarşısını almaq məqsədilə Milli Məclisdə maarifləndirmə işi aparsın;
- Milli Məclisin İşlər İdarəsinin bütün texniki heyəti, o cümlədən sürücülər, inşaatçılar, fəhlələr və digər işçilər gündə bir dəfə hökmən tibbi müayinədən keçirilsinlər;
- Milli Məclisin avtoparkının balansında olan bütün nəqliyyat vasitələri gündə bir dəfə hökmən dezinfeksiya edilsin;
- Milli Məclisin İşlər İdarəsi parlamentin bütün inzibati binalarının dəhlizlərində antiseptik vasitələrin qoyulmasını və gündəlik təzələnməsini təmin etsin.

Sərəncamda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsinə nəzarət Milli Məclis Aparatının rəhbərinə və İşlər müdirinə həvalə edilib.

## 3 ildə 23 pillə yüksəliş

### Prezident İlham Əliyevin mütərəqqi islahatları ilə Azərbaycan Avropa regionunda iqtisadi azadlıq indeksini ən çox yaxşılaşdıran ölkədir

*Əvvəli 1-ci səh.*

Qeyd olunan əsas indikatorlar üzrə isə müəyyənləşdirilən əsas alt-indikatorlara mülkiyyət hüquqları, hökumət bütövlüyü, məhkəmə effektivliyi, dövlət xərcləri, vergi yükü, fiskal sağlamlıq, biznes azadlığı, əmək azadlığı, pul azadlığı, ticarət azadlığı, investisiya azadlığı və son olaraq maliyyə azadlığı aid olunur. Hər bir alt-indikator indeks üzrə reytinqdə bərabər xüsusi çəkiyə malikdir.

Bu gün Azərbaycan dünyada "İqtisadi azadlıq indeksi"ni ən çox təkmilləşdirən 11 ölkə sırasındadır. Son 3 ilin göstəricilərinə nəzər yetirdikdə bunları aydın şəkildə görə bilərik.

İki il öncə, 2018-ci ildə Azərbaycan "İqtisadi azadlıq indeksi"ndə bir pillə irəliləyərək 186 ölkə arasında 67-ci yerdə qərarlaşmışdı. Həmin hesabatda bildirilirdi ki, son on il ərzində həyata keçirilən davamlı iqtisadi islahatlar nəticəsində Azərbaycan ümumi orta hesab üzrə regional və dünya göstəricilərindən üstün olaraq, Asiya-Sakit Okean regionunda 43 ölkə arasında 14-cü yerdə qərarlaşmışdı. Bundan əlavə, sözügedən indeks üzrə Azərbaycan Fransa, İtaliya və Yunanıstan kimi inkişaf etmiş ölkələr ilə müqayisədə ön sıralarda yer tutmuşdu. Həmçinin Rusiya da daxil olmaqla bir sıra MDB ölkələrini qabaqlamışdı.

2019-cu ildə isə ölkəmiz 7 pillə irəliləyərək 186 ölkə arasında 60-cı, 2020-ci ildə isə daha 16 pillə irəliləyərək 44-cü yerə yüksəlib. Göründüyü kimi, son 3 ildə Azərbaycan "İqtisadi azadlıq indeksi"ndə Avropanın inkişaf etmiş ölkələrini geridə qoyaraq 23 pillə irəliləyib. Bu, əlbəttə ki, ölkəmiz adına böyük nailiyyətdir.

#### Reytinqdə Azərbaycan qədər irəliləyiş edən ikinci ölkə yoxdur

Bütün bunlar Prezident İlham Əliyevin məqsədyönlü və köklü iqtisadi islahatlarına verilən növbəti beynəlxalq qiymətdir. Əksər beynəlxalq reytinq agentlikləri tərəfindən ard-arda ölkə iqtisadiyyatının real vəziyyəti haqqında müsbət mövqe nümayiş etdirməsi təbii ki, təsadüfi deyil. Bütün hesabatlarda Azərbaycanın adının yüksəlməsini müşahidə edirik.



Azərbaycanın iqtisadi sahədə qazandığı bu nailiyyətlər, eləcə də ölkədə həyata keçirilən liberal iqtisadi islahatlar, rəqabətədavamlı, innovativ iqtisadi sistemin formalaşdırılması istiqamətində atılan ardıcıl və qətiyyətli addımlar dünyanın aparıcı iqtisadi və maliyyə institutlarının, reytinq agentliklərinin, iqtisadi azadlıq səviyyəsini tədqiq edən fond və mərkəzlərin diqqətindən kənarda qalmır və yüksək qiymətləndirilir.

Xatırladaq ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" 2016-cı il 13 iyul tarixli sərəncam imzalayıb. Eləcə də "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" fərman imzalayıb. Bu sərəncam və fərmanlar nəticəsində bir sıra istiqamətlər üzrə mövcud vəziyyətin yaxşılaşdırılması, maliyyə sabitliyi və davamlı iqtisadi inkişafın təmin olunması, Azərbaycanın iqtisadi mövqeyinin gücləndirilməsi ilə mühüm nailiyyətlər əldə olunub.

"İqtisadi azadlıq indeksi" də göstərir ki, Azərbaycan əsasən azad ölkələrin sırasında mövqelərini daha da möhkəmləndirir. Son illərdəki yüksəlişə nəzər yetirsək görərik ki, "İqtisadi azadlıq indeksi"nin tarixində ölkəmiz qədər irəliləyiş edən ikinci ölkə yoxdur.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı da bildirdi ki, Azərbaycanın bu irəliləyişi biznes, investisiya azadlığı və fiskal sağlamlıq göstəricilərinə görə əldə etdiyi nailiyyətlərə əsaslanır. Azərbaycan "İqtisadi azadlıq indeksi"nə görə Polşa, Belçika, Portuqaliya, İspaniya və Fransa kimi Avropa ölkələrini geridə qoyub. Ölkəmiz Avropa regionunda "İqtisadi azadlıq indeksi"ni ən çox yaxşılaşdıran ölkə kimi qiymətləndirilib. Azərbaycanın "İqtisadi azadlıq indeksi" Avropanın orta göstəricisinə təxminən bərabərdir. Bu ildən etibarən "İrs Fondu" Azərbaycanı Asiya-Sakit Okean deyil, Avropa ölkəsi kimi qiymətləndirib".

Əminliklə deyə bilərik ki, son illərdə Azərbaycanda həyata keçirilən uğurlu siyasətin nəticəsində inklüziv və dayanıqlı inkişafa nail olunub. Azərbaycan ardıcıl olaraq iki dəfə 2018-ci və 2019-cu illərdə Dünya Bankının "Doing Business" hesabatında "10 ən islahatçı" və "20 ən islahatçı" ölkələr sırasında qərarlaşıb. Həmçinin "Qlobal Rəqabətlilik Hesabatı" və "İqtisadi azadlıq indeksi" hesabatının nəticələri də ölkəmizin uğurlarını göstərir.

Əlbəttə ki, belə hesabatlarda, reytinqlərdə adı ən yaxşılar sırasında çəkilən Azərbaycanın beynəlxalq nüfuzu getdikcə artır, etibarlı tərəfdaşlarının sayı çoxalır və ölkəyə investisiya axını daha da sürətlənir. Bu da ölkəyə həm iqtisadi, həm də siyasi dividendlər qazandırır.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

## VI çağırış Milli Məclisin Mədəniyyət komitəsi onlayn sistemlə ilk iclasını keçirib

**VI çağırış Milli Məclisin Mədəniyyət komitəsi martın 18-də onlayn sistemlə ilk iclasını keçirib.**

AZƏRTAC parlamentin mətbuat xidmətinə istinadla xəbər verir ki, komitənin sədri Qənirə Paşayeva ölkədə koronavirusla mübarizə sahəsində görülən işləri yüksək dəyərləndirib, dövlətimizin qaydalarına uyğun olaraq komitənin iclasının bu sistemlə keçirilməsi zərurətinin yarandığını vurğulayıb. İclasda əvvəlcə komitənin 2020-ci ilin yaz sessiyası üçün nəzərdə tutulmuş iş planı müzakirə olunub. Bildirilib ki, qarşıdakı dövrdə "Kinematoqrafiya haqqında", "Azərbaycan muğam sənətinin qorunması və inkişaf etdirilməsi haqqında", "Yazılı abidələr haqqında", "Kabel şəbəkəsi yayımı haqqında" vacib qanun layihələrinin hazırlanması nəzərdə tutulur. Komitə üzvlərinin sənədlərlə bağlı təklifləri dinlənilib, qanunvericilik işləri planı təsdiq edilib.

Sonra "Milli Məclisin Daxili Nizamnaməsinin təsdiq edilməsi haqqında", "Televiziya və radio yayımı haqqında", "Azərbaycan Respublikası Dövlət bayrağının istifadə qaydaları haqqında" və "İctimai televiziya və radio yayımı haqqında" qanunlarda dəyişiklik edilməsi ilə bağlı məsələyə baxılıb. Bildirilib ki, sənədlərdə təklif olunan dəyişikliklərin məqsədi "Azərbaycan Respublikasının Dövlət Himnindən istifadə qaydaları haqqında" qanunun icrası ilə əlaqədardır.

İclasın gündəliyinə daxil edilən digər sənədin - "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" və "Azərbaycan Respublikasında dövlət dili haqqında" qanunlara təklif edilən dəyişikliklərin "Reklam haqqında" qanuna uyğunlaşdırma məqsədilə aparıldığı qeyd edilib.

Onlayn müzakirələrin sonunda hər iki sənədin Milli Məclisin plenar iclasına tövsiyə edilməsi barədə qərar qəbul olunub.

## Heydər Əliyev Fondu tərəfindən Azərbaycana müxtəlif ölkələrdən tibbi ləvazimatlar gətirilib






Koronavirus xəstəliyinin ölkə ərazisində geniş yayılmasının qarşısının alınması ilə bağlı Azərbaycan Respublikası Nazirlər Kabineti yanında yaradılan Operativ Qərargahın işinə dəstək olaraq Heydər Əliyev Fondu tərəfindən müxtəlif ölkələrdən tibbi ləvazimatlar gətirilib.

AZƏRTAC xəbər verir ki, xüsusi tibbi maskalar, əlcəklər, qoruyucu eynəklər, tibbi geyimlər və dezinfeksiyaedici vasitələr müvafiq tibb müəssisələrinə verilib.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## TAP Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayacaq

### Kəmərin bu ilin sonunadək işə düşəcəyi gözlənilir

1994-cü ildən neft-qaz sektorunda başladığı məqsədyönlü və genişmiqyaslı işlər Azərbaycanı Avropanın sabit və təhlükəsiz enerji təchizatçısına çevirib.



O cümlədən CQBK (Cənubi Qafqaz Boru Kəməri), TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) və TAP (Trans-Adriatik Qaz Boru Kəməri) ölkələr arasında bağlantılar, iqtisadi inteqrasiya yaradan, dünyanın enerji xəritəsini yenidən tərtib edən sistem kimi formalaşıb. Bir zamanlar mif kimi görünən "Cənub qaz dəhlizi" bu il TAP-ın çəkilişinin başa çatması ilə tam gerçəkləşəcək.

TAP "Cənub qaz dəhlizi"nin sonuncu seqmentidir. Layihənin ondan əvvəlki üç hissəsi artıq fəaliyyətdədir. Belə ki, "Şahdəniz-2"dən 2018-ci ilin ortalarından qaz nəql olunmağa başlayıb. CQBK-nın genişləndirilməsi tamamlanıb. 2018-ci ilin iyun ayında istifadəyə verilən TANAP 2019-cu ilin sonunda Avropa sərhədinə çatıb, bununla da qazı TAP-a ötürmək üçün tam hazır olub.

TAP-ın çəkilişində də işlər sona çatmaq üzrədir. Burada işlərin 93 faizdən çoxu tamamlanıb. Xətt boyu düzülən borular qaynaqlanır, xəndəyə endirilir və onların üstü torpaqla örtülərək ərazinin əvvəlki görkəmi bərpa olunur. Beləliklə, tikinti gedən yerlərdə hər gün yüzlərlə metr sahə təmizlənir.

"Cənub qaz dəhlizi" Məşvərət Şurasının bu il fevralın sonunda Bakıda keçirilən VI toplantısında TAP-ın icraçı direktoru Luca Schieppati bildirib ki, kəmərin Yunanıstan, Albaniya və İtaliyadakı quru hissəsində boruların hamısı torpağa basdırılıb. Üç ölkədə boruların 99 faizi marşrut xətti boyunca düzülüb və qaynaqlanıb. Kəmərin marşrutu boyu inşaat işləri gedən sahələrin 99 faizində xəndəklər torpaqla örtülüb və əraziyə öz əvvəlki görkəmi verilib.

TAP-ın ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olan ilkin layihəsi üçün nəzərdə tutulan yerüstü obyektlərində də işlər ahəngdar gedir. Biri Yunanıstanın Kipoi, digəri Albaniyanın Fier məntəqəsində olan iki kompressor stansiyasının inşası yekunlaşıb. Albaniyanın şərqindəki Bilisht regionunun yaxınlığında ölçmə stansiyasının tikintisi də tamamlanıb. İtaliyadakı təbii qazın qəbulu terminalının tikinti işlərinin 80 faizi artıq görülüb. Layihə çərçivəsində İtaliyanın "Saipem" şirkətinin borudüzən gəmisi ölkənin Sanfoka bölgəsində işlərə start verib.

Məlum olduğu kimi, TAP-ın böyük bir hissəsi Adriatik dənizinin altından keçir. Kəmərin dəniz hissəsi Albaniya və İtaliya sahillərini bir-birinə birləşdirəcək və uzunluğu 105 kilometr olacaq. Albaniya sularında boruların dənizin dibində quraşdırılması artıq başa çatıb.

TAP-ın icraçı direktorunun sözlərinə görə, ötən ilin noyabrında kəmərin Yunanıstan hissəsində sınaq məqsədilə qaz nəqlinə başlanıb. Növbəti aylarda bu proses Albaniya və İtaliyada da həyata keçiriləcək. TAP vasitəsilə ticari məqsədlə qaz nəqlinin bu ilin oktyabr ayında, yəni xəttin İtaliyaya qədər olan hissəsinin tam istifadəyə verildiyi və sınaqdan keçirildiyi vaxtda gözlənilir.

Xatırladaq ki, TAP üç ölkənin ərazisində 878 kilometr məsafə qət edir. Onun 550 kilometri Yunanıstanın, 210 kilometri Albaniyanın ərazisindən, 105 kilometri Adriatik dənizinin altından keçir və sonuncu - bir neçə kilometrlik hissəsi İtaliya torpağında quru sahəyə çıxır. Burada kəmər "Snam Pete Gas" şirkətinin istismar etdiyi qaz nəqliyyatı şəbəkəsinə birləşdiriləcək.

"Snam" şirkətinin Beynəlxalq əlaqələr və biznesin inkişafı üzrə direktoru Alessandra Pasini Azərbaycanla əməkdaşlığı getdikcə daha da genişləndirmək fikrində olduqlarını bildirib. Belə ki, bərpa olunan qazların gələcəkdə "Cənub qaz dəhlizi" və TAP vasitəsilə nəqli nəzərdə tutulur. Buna görə də "Snam" TAP-ı "Snam Pete" şəbəkəsinə birləşdirən 55 kilometrlik bir interkonnektorun inşasını da planlaşdırır.

TAP həmçinin "Cənub qaz dəhlizi"ni Cənub-Şərqi Avropa və Balkanlarda planlaşdırılan Yunanıstan-Bolqarıstan interkonnektoru, İon-Adriatik qaz kəməri, eləcə də Rumıniya-Bolqarıstan, BRUA (Bolqarıstan-Rumıniya-Macarıstan-Avstriya) ilə əlaqələndirmək imkanına malik ola bilər. Beləliklə, bu kəmər Bolqarıstan, Xorvatiya, Monteneqro, Bosniya və Herseqovina və Avropanın bir sıra digər ölkələri üçün geniş perspektivlər aça və bölgəyə yeni təchizat mənbələri bəxş edər.

TAP strateji əhəmiyyət daşıyan bir layihədir. O, Avropanın karbohidrogenlərə olan tələbatını ödəməkdə və enerji təhlükəsizliyində mühüm rol oynayacaq.

***Flora SADIQLI,***
***"Azərbaycan"***




## Hökumət qlobal şoklara qarşı tədbirləri gücləndirir

*Əvvəli 1-ci səh.*

Maarifləndirmə işləri aparılır, sərhəd-keçid məntəqələrində xüsusi qaydalar və zəruri qadağalar tətbiq edilir. Hökumətin bu məqsədlə təsdiq etdiyi Tədbirlər Planı səmərəsini çox gözlətmir. Ölkəmizdə virusa yoluxanların sayının az olması görülən tədbirlərin faydalılıq əmsalının yüksək faizini təsdiq edir.

Koronavirusun yayılmasının qarşısının alınması və müvafiq profilaktik tədbirlərin zamanında və sürətlə reallaşdırılması məqsədilə Dünya Səhiyyə Təşkilatı ilə birgə intensiv iş aparılır, verilən bütün tövsiyələr dəqiqliklə icra edilir. Əldə edilən nətcələr həm də insanların dövlətə güvəncini artırır. Lakin ən əsası yenə də hər bir kəsin evində, ailəsində və işində virusun yayılmasının qarşısını almağa imkan verən gigiyenik qaydalara tam məsuliyyətlə əməl etməsinin vacibliyini anlamaqdır. Dövlət vətəndaşların sağlamlığını necə qoruyursa, hər kəs də özünü, evini, iş yerini qorumaqla ümumi işə öz töhfəsini verməlidir.

Hökumətin diqqət ayırdığı ikinci əsas məsələ neftin məlum səbəblərdən kəskin ucuzlaşmasının Azərbaycana təsirlərinin azaldılmasıdır. Bu işdə isə valyuta bazarında tələb-təklifin tənzimlənməsi, manatın sabitliyinin qorunması, inflyasiyanın nəzarətdə saxlanılması və bazarlarda spekulyasiyalara yol verilməməsidir ki, Azərbaycan hökuməti də bu tələblərin öhdəsindən uğurla gəlir.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı qlobal şokların Azərbaycana olan təsirlərinin azaldılması üçün hökumətin fəaliyyəti barədə açıqlamasında belə deyir: "Xüsusilə sosial proqramların tam icrası nəzarətə götürülüb. Ünvanlı sosial yardım, ictimai işlər, özünüməşğulluq, kirayə mənzil, icbari tibbi sığorta, sosial ipoteka kimi sosial layihələr tam icra ediləcəkdir. Cari ildə dövlət büdcəsinin sosialyönlü xərcləri 10,4 milyard manat proqnozlaşdırılır ki, bu da ötən illə müqayisədə 2,6 milyard manat və ya 33,5 faiz çoxdur. Cənab Prezidentin tövsiyəsinə uyğun olaraq özəl sektor da mövcud iş yerlərinin saxlanılması və yeni iş yerlərinin açılmasında fəal olmalıdır. Dövlət başçısının tapşırığına uyğun olaraq kiçik və orta sahibkarlığın daha geniş miqyasda dəstəklənməsi və ölkədə sərmayə qoyuluşunun artırılması istiqamətindəki tədbirlər xüsusi olaraq iqtisadi artımın dayanıqlılığının təmin edilməsinə hesablanıb". Vüsal Qasımlı onu da qeyd edir ki, bu ilin ilk iki ayında əsas kapitala yönəldilən vəsaitlər 12,7 faiz artmışdır və hökumət bu tempin saxlanılmasında maraqlıdır.

Xüsusi vurğulanmalıdır ki, dövlət başçısı iqtisadi prosesləri daim diqqət mərkəzində saxlayır, sosial məsələlərin həllində güzəştsiz mövqe nümayiş etdirir. Prezident İlham Əliyevin bir neçə gün əvvəl Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayevi qəbul edərək ondan pensiya təminatı ilə bağlı, xüsusilə bu il yanvarın 1-dən görülmüş işlər haqqında məlumat verməsini tələb etməsi bu diqqətin nəticəsidir.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

## İctimai təşkilatlarla fermerlər arasında əməkdaşlıq qurulur

Mövsümlə əlaqədar Aqrar Elm və İnnovasiya Mərkəzinın Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutunun (ÜŞETİ) əməkdaşları, o cümlədən institutda fəaliyyət göstərən Üzümçü-Şərabçı Gənclər Birliyinin üzvləri fermerlərə məxsus üzüm bağlarında tarla seminarı keçiriblər.

Seminarda Azərbaycan Dövlət İqtisad Universitetində fəaliyyət göstərən könüllülər də iştirak ediblər.

Artıq ikinci dəfədir ki, həyata keçirilən tarla seminarının məqsədi alimlərin və gənclərin üzümçülüklə məşğul olan fermerlərin birgə fəaliyyətinə nail olmaq, onlarda vərdiş və bacarıqları daha da artırmaq, eləcə də bu sahədəki nəzəri-təcrübi biliklərin artırılmasına nail olmaqdır.

Tarla seminarı Abşeron rayonunun Məhəmmədi kəndindəki üzümçülük təsərrüfatında keçirilib. Təcrübəli fermer Sücəddin Rzayev üzüm bağı, becərilən sortlar və həyata keçirdiyi aqrotexniki tədbirlər barədə gənclərə məlumat verib. Sonra gənclərə budama qaydaları, ümumi aqrotexniki, aqrokimyəvi və bitki mühafizəsinin mahiyyəti izah edilib, sortların bioloji xüsusiyyətləri, tənəyin ümumi quruluşu, onun ayrı-ayrı vegetativ orqanlarının funksiyaları barədə məlumat verilib. Sonda institutda fəaliyyət göstərən xidmət qrupunun üzvləri və gənclərin iştirakı ilə sahənin ümumi sanitar vəziyyətinə baxış keçirilib.



## SOCAR MARINE beynəlxalq dəniz yanacağı bazarında lider oldu

**2013-cü ildən beynəlxalq dəniz yanacağı sektorunda fəaliyyət göstərən SOCAR MARINE 2019-cu ildə 600 min tonluq satışla sektorun lideri oldu. Sektorun gənc iştirakçısı olan SOCAR MARINE-in bazar payı 25 faizi ötdü.**

Türkiyənin ən böyük birbaşa xarici investoru olan SOCAR TÜRKİYƏ-nin sərmayələrinə paralel olaraq sürətlə böyüyən SOCAR MARINE markası beynəlxalq dəniz yanacağı sektorunun liderliyinə yüksəldi. 2019-cu ildə SOCAR MARINE-in satışları 600 min tonluq həcmi aşdı. Türk boğazlarından keçən, Türkiyə limanlarında yük əməliyyatlarını yerinə yetirərək xaricə çıxan, yaxud da ölkəyə daxil olan gəmilərə satışları əhatə edən bu həcmlə şirkətin bazardakı payı 25 faizdən artıq oldu.

## Sosial iş həssas qrupların analoji xidmətlərlə təminatında mühüm sahələrdəndir

Ötən əsrin 80-ci illərində Sosial İşçilərin Beynəlxalq Federasiyası tərəfindən hər il mart ayının üçüncü çərşənbə axşamı Ümumdünya Sosial İş Günü kimi elan olunub. Sonralar bir sıra beynəlxalq təşkilatlar da bu təşəbbüsə qoşulub.

Bu gün Azərbaycanda da sosial iş həssas qrupların bu və ya digər səbəbdən sosial-psixoloji vəziyyətini, məişətini çətinləşdirən və təkbaşına bacarmadıqları problemlərin həllində dövlət dəstəyini nəzərdə tutan sosial xidmətlərlə təminatında mühüm sahələrdən biridir.

Hazırda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sosial xidmətlər sistemində çalışanların bir hissəsi də məhz sosial işçilərdir. Onlar müvafiq kateqoriyalı insanların (tənha ahıl və əlillərin, sağlamlıq imkanları məhdud, yaxud sosial təhlükəli vəziyyətdə olan uşaqların, məişət zorakılığından zərər çəkənlərin və s.) sosial xidmətlərə olan tələbatının qiymətləndirilməsi və müəyyənləşdirilməsi, həmin şəxslərə bu istiqamətdə xidmətlərin təşkili istiqamətində fəaliyyət göstərirlər.

Sosial işçilər sosial xidmətin formasını, növünü, sosial xidmətin göstərilməsi yerini və s. müəyyən edir. Sonra onların tərtib etdikləri fərdi planlar əsasında sosial xidmətçilər tərəfindən çətin həyat şəraitində olan insanlara sosial-məişət xidmətləri göstərilir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun 15 sosial xidmət müəssisəsində 1100-dən çox şəxs daimi dövlət təminatında yaşayır. Həmçinin tənha yaşayan və özünəqulluq qabiliyyəti olmayan 10 minə yaxın ahıl və əlil şəxsə evlərində sosial-məişət xidməti göstərilir.

## Bölgələrdə yolların yenidən qurulması davam edir

Regionların inkişafı ilə bağlı qəbul edilən dördüncü Dövlət Proqramına uyğun olaraq yolların müasirləşdirilməsi istiqamətində görülən işlər davam edir. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi Kürdəmir rayonunda bu çərçivədə 18 km uzunluğa malik Ərəb Qubalı-Çöl Qubalı-Məhərrəmli avtomobil yolunu yenidən qurmağa başlayıb.

Başlanğıcını Bakı-Ələt-Gürcüstan Respublikası ilə dövlət sərhədi avtomobil yolunun 170-ci km-dən götürən bu yolun əhatə etdiyi 3 kənddə 4 min əhali yaşayır.

Hazırda deformasiyaya uğramış örtüyün bərpası məqsədilə zəruri yerlərdə yol yatağı qazılaraq çıxarılır, genişləndirmə işləri aparılır. Yol yatağı hazır olan hissələrdə yol əsasının tikintisi işləri həyata keçiriləcək. Bunun üçün qum-çınqıl və optimal-qırmadaş qarışığından istifadə olunacaq. Texnoloji ardıcıllıqla aparılan tikinti işlərinin növbəti mərhələsində yolun asfaltlanması işlərinə start veriləcək.

Yolboyu avtonəqliyyat vasitələrinin normal hərəkətini təmin etmək məqsədilə avtobus dayanacaqlarının tikilməsi, yol nişanları, km göstəriciləri və məlumatverici lövhələr, həmçinin siqnal dirəklərinin quraşdırılması işləri də aparılacaq.

Zərdab rayonunda da 7 km uzunluğunda yerli əhəmiyyətli avtomobil yolunun yenidən qurulması işlərinə başlanılıb. Respublika əhəmiyyətli Ucar-Zərdab-Ağcabədi avtomobil yolunun 32-ci km-dən ayrılan Gəlmə-Əlibəyli-Allahqulubağı avtomobil yolu IV texniki dərəcəlidir və 3 kəndin 4 mindən artıq əhalisinin rayon mərkəzinə və qonşu rayonlara çıxışını təmin edir.

Hazırda Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən yolboyu torpaq yatağının deformasiyaya uğramış hissələri qazılaraq çıxarılır, yolun qazılmış və relyefdən aşağı olan hissələrində torpaq yatağının qaldırılması üçün tələb olunan qalınlıqda yararlı qrunt tökülərək yayılır və kipləşdirilir.

Bu işlərin ardınca yol əsasının inşası həyata keçiriləcək. Bu iş üçün qum-çınqıl və optimal-qırmadaş qarışığından istifadə olunacaq. Yolun çiyin hissələri də dağıldığından çiyinlərin 12 sm qalınlığında optimal qum-çınqıl qarışığı ilə bərkidilməsi işləri aparılacaq.

Yolboyu suötürücü qurğular tamamilə sıradan çıxdığı üçün suların normal ötürülməsini təmin etmək məqsədilə müxtəlif diametrlərə malik yeni suötürücü borunun quraşdırılması və izolyasiyası işlərinin aparılması da nəzərdə tutulub.

Yenidən qurulan bu yollar ilk növbədə adları çəkilən kəndlərin əhalisinin rahatlığını təmin edəcək, onların mənzilbaşına təhlükəsiz çatmalarına imkan yaradacaq. Bundan başqa, yolların müasir səviyyəyə çatdırılması Kürdəmir və Zərdab rayonlarının sosial-iqtisadi inkişafını da sürətləndirəcək.

## Qubada yaradılan "Ağıllı bağ"da günəş panelləri və örtük sistemi quraşdırılıb

Azərbaycanda ilk dəfə Qubada müasir texnologiyaların tətbiqi ilə yaradılan "Ağıllı bağ"da günəş panelləri və örtük sistemi quraşdırılıb.

Kənd Təsərrüfatı Nazirliyinin Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunun "Ağıllı bağ" layihəsi çərçivəsində salınan meyvə bağının becərilməsi tamamilə avtomatlaşdırılacaq və kompüter idarəetməsi tətbiq olunacaq.

"Ağıllı bağ"da avtomatlaşdırılmış suvarma və gübrələmə sistemləri quraşdırılır. Ən böyük yeniliklərdən biri də odur ki, su mənbəyi üçün qazılan subartezian quyusu günəş panellərindən alınmış elektrik enerjisi ilə çalışacaq.

Mütəxəssis Emin Məmmədov bildirib ki, artıq bağda 126 günəş panelinin quraşdırılması işləri yekunlaşıb. Bu panellər vasitəsilə saatda 30 kilovat elektrik enerjisi əldə olunacaq. Həmin enerji ilə bağın su nasoslarının fəaliyyəti təmin ediləcək. Gələcəkdə bu təcrübədən ölkəmizin çətin relyefli, elektrik enerjisi ilə təminat yerindən uzaqda yerləşən təsərrüfat sahələrində də yararlanmaq mümkün olacaq.

"Ağıllı bağ"da hazırda günəş, dolu və şaxtaya qarşı örtük sistemi də yaradılır. Bununla da məhsul itkisinin qarşısı alınacaq.

İnstitutun elmi işçisi Asif Kərimov bildirib ki, qarışıq meyvə bağında alma, armud, heyva, şaftalı və gilas olmaqla müxtəlif növ meyvə ağacları becəriləcək. Artıq tinglərin əkin prosesinə başlanılıb. "Bu bağların əsas üstünlüyü ondan ibarətdir ki, məhsuldarlıq 25 faiz artacaq. Bağda çalışanların sayı isə minimuma düşəcək. Bağ salındıqdan sonra cəmi 3 nəfər - su mühəndisi, mexanizator və aqronom becərilmə prosesinə nəzarət edəcək. 15 hektar sahədə salınan meyvə bağına aqrotexniki qulluq işləri telefon və ya kompüter vasitəsilə uzaqdan idarə olunacaq", - deyə A.Kərimov bildirib.



"Ağıllı bağ"da mərkəzi xəbərdarlıq sistemi də qurulub. Bu sistem vasitəsilə meyvə bağlarında bitkilərin inkişafı prosesinə nəzarət olunacaq. Meyvə ağaclarının suya, gübrəyə olan tələbatı, həmçinin zərərverici və xəstəlikləri barədə məlumatlar mərkəzi sistemə ötürüləcək. Bundan başqa, sistemdə meyvələrin ölçülərinin böyüməsi dinamikası da mütəmadi öz əksini tapacaq.

Daha bir yenilik isə ondan ibarətdir ki, "Ağıllı bağ"da dədə-baba alma sortlarından ən populyarı "Qızıl Əhmədi"nin və institut tərəfindən yaradılan yeni "Sədəf" sortunun superintensiv qaydada yetişdirilməsi sınaqdan keçiriləcək.

"Ağıllı bağ"ın tam formalaşdırılması, becərilmənin avtomatlaşdırılmış idarəetmə sisteminə qoşulması yanvar ayının sonuna kimi başa çatdırılacaq.

Qabaqlayıcı tədbirlər səmərə verir

# Hər kəs vətəndaş məsuliyyəti nümayiş etdirməlidir

Mehriban ƏLİYEVA: "Əminəm ki, müdrik xalqımızın ən gözəl xüsusiyyətləri - ruh yüksəkliyi və mərdlik, mərhəmət və şəfqət, inam və məhəbbət sayəsində biz birlikdə bu ciddi çağırışın öhdəsindən gələcəyik"



Dünyanı başına alan koronavirus infeksiyasının ayrı-ayrı ölkələrdə yayılması gündən-günə daha da sürətlənir. İndi bu xəstəliklə bağlı etiraf olunan əsas həqiqətlərdən biri odur ki, Çində ilk günlərdə yüngül əlamətləri olan belə xəstələr uzun müddət aşkarlanmayıblar. Bu da tədricən infeksiyanın şiddətlənməsinə, daha da ayaq tutub yeriməsinə və geniş areala yayılmasına gətirib çıxarıb.

## Dünyada 200 mindən çox insan koronavirusa yoluxub

Dünya Səhiyyə Təşkilatının koronavirusla bağlı son statistik məlumatlarına əsasən, xəstəlik 167 ölkədə özünü büruzə verib. Bütün dünya üzrə 200 mindən çox insan koronavirusa yoluxub. Xəstəliyin ilk baş qaldırdığı Çində 81 min 102 nəfərdə koronavirus aşkarlanıb. Onlardan 3200-dən çoxu vəfat edib, təxminən 69 min 718 nəfər isə sağalıb.

Koronavirusun Çindən sonra daha çox yayıldığı İtaliyada vəziyyət kritikdir. İndiyədək bu ölkədə 31506 nəfərdə bu infeksiya aşkarlanıb. Onlardan 2503 nəfəri dünyasını dəyişib, 2941 nəfəri sağalıb. İranda 16 min 169 nəfər, İspaniyada 13 min 716 nəfər, Almaniyada 9877 nəfər, Cənubi Koreyada 8413 nəfər, Fransada 7696 nəfər, ABŞ-da 6496 nəfər koronavirusa yoluxub. Onların bir qismi dünyasını dəyişib. Xəstəliyin bütün qitələrdə yayıldığı nəzərə alınaraq DST tərəfindən koronavirus qlobal pandemiya elan edilib. Ümumilikdə indiyədək 7 min 989 nəfər bu virusdan vəfat edib, 82 min 779 nəfər isə sağalıb.

Reallıq göstərir ki, hələlik müalicəsi tapılmasa da, yüngül əlamətlərin özünü büruzə verdiyi andan lazımi tibbi müdaxilə olunarsa, sağalmaq mümkündür. Bununla yanaşı, digər vacib məsələ koronavirusun yayılmasının qarşısını almaqdır. Çünki koronavirusun xarakterik cəhətlərindən biri də öldürücü xüsusiyyətə malik olması ilə yanaşı, insana tez yoluxmasıdır.

Təsadüfi deyil ki, bütün dövlətlər sərt izolyasiya tədbirlərinə əl atmağa məcbur olublar. Virusun uzun inkubasiya dövrünün olması, yayılma sürəti və vaksinin hələ də tapılmamasına görə ayrı-ayrı xarici təmasların minimallaşdırılması və ya ümumiyyətlə dayandırılması, daxili həyatda sərt məhdudiyyətlərin tətbiq edilməsi bir çox ölkələr üçün səciyyəvi hal alıb. Əksər dövlətlər arasında sərhədlər bağlanılıb, təyyarə uçuşları dayandırılıb, turist səyahətləri ləğv edilib, idman və digər kütləvi tədbirlər təxirə salınıb.

## Təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi zərurətdir

Azərbaycanda da koronavirus infeksiyasına yoluxanlar var. Lakin öncə onu qeyd etməliyik ki, Azərbaycandakı vəziyyət bu virusun yayıldığı digər ölkələrlə müqayisədə təhlükəli deyil. Nazirlər Kabinetinin yanında Operativ Qərargahın dünənki məlumatına əsasən, koronavirus aşkarlanmış 4 nəfər xüsusi rejimli xəstəxanalarda müalicə olunaraq sağalıb və evə buraxılıblar. Hazırda Azərbaycanda 23 nəfər koronavirus xəstəsi xüsusi rejimli xəstəxanalarda həkim nəzarəti altındadır. Onların müalicəsi ilə bağlı müvafiq tədbirlər davam etdirilir.

Qeyd etdiyimiz kimi, bu gün koronavirusla mübarizədə başlıca vəzifələrdən biri təxirəsalınmaz izolyasiya tədbirlərinin həyata keçirilməsidir. Koronavirus infeksiyasının qlobal pandemiya elan olunduğunu və virusun geniş yayılma sürətini nəzərə alaraq Azərbaycanda da bir sıra təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi zərurəti yaranıb.

Tətbiq olunmasına başlanılan sosial izolyasiya tədbirlərinə əsasən ölkə üzrə bütün kütləvi tədbirlər, o cümlədən mədəni-idman tədbirləri təxirə salınıb, təyin olunmuş tədbirlərin tarixi dəyişdirilib. Kino, muzey və teatrların, əyləncə mərkəzlərinin, idman zallarının fəaliyyəti dayandırılıb. Toy məclislərinin keçirilməsi qadağan edilib. Dəfn mərasimləri istisna olmaqla, mərasim zallarında, çadırlarda və digər qapalı məkanlarda yas mərasimlərinin keçirilməsi də qadağandır.

Xüsusən insanların səfərlər şəraitində digər insanlarla təmas və yoluxma riskinin yüksək olduğunu və indiki halda ən yaxşı mühafizənin qaldığı yerdə özünü karantin etməyini nəzərə alaraq, ölkə daxilində və xaricində olan vətəndaşlara səfərlərdən çəkinmələri ciddi şəkildə tövsiyə olunur.

Koronavirus infeksiyasının yayılmasının qarşısını almaq məqsədilə bütün səviyyələrdə hərəkətin məhdudlaşdırılması və sosial təcridin gücləndirilməsi üçün bu gündən xüsusi təyinatlı, təcili tibbi yardım, qəza-bərpa, xilasedici, habelə yük daşıyan avtomobillərin hərəkəti istisna olmaqla, respublikanın şəhər və rayonlarında qeydiyyatda olan nəqliyyat vasitələrinin və onların sərnişinlərinin Bakı, Sumqayıt şəhərlərinə və Abşeron rayonuna buraxılması martın 29-dək dayandırılıb.

Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunda qeydiyyatda olan sərnişindaşıma nəqliyyat vasitələrinin (avtobus, mikroavtobus, taksi və s.) ölkənin başqa şəhər və rayonlarından Bakı, Sumqayıt şəhərlərinə və Abşeron rayonuna sərnişin daşımaları qadağan olunub. O cümlədən Sumqayıt və Abşeron istisna olmaqla, ölkənin bütün şəhər və rayonlarından qatar vasitəsilə Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonuna sərnişin daşınması dayandırılır. Ölkə ərazisindəki hava limanlarından da Bakıya sərnişin daşınmasına fasilə verilir.

## Karantin rejiminə əməl etməyənlər ciddi məsuliyyət daşıyacaqlar

Həyata keçirilən təxirəsalınmaz tədbirlərdən biri də xaricdən gələn vətəndaşların müayinədən keçirilməsi və zərurət yarandığı halda, 14-28 günlük karantin rejiminə yerləşdirilməsidir. Təəssüf ki, bəzi hallarda vətəndaşlar bu tələbə əməl etmək istəmirlər. Lakin Cinayət və İnzibati Xətalar məcəllələrinə edilmiş dəyişikliyə əsasən buna əməl etməyənlər daha ciddi məsuliyyət daşıyacaqlar.

Milli Məclisin son iclasında Cinayət Məcəlləsinə 139-1-ci maddə əlavə olunub. Bu maddəyə əsasən epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və ya karantin rejimlərinin pozulması xəstəliklərin yayılmasına səbəb olduqda və ya xəstəliklərin yayılması üçün real təhlükə yaratdıqda iki min beş yüz manatdan beş min manatadək miqdarda cərimə və ya üç ilədək müddətdə azadlığın məhdudlaşdırılması və ya üç ilədək azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Eyni əməllər insan ölümünə və digər ağır nəticələrə səbəb olduqda üç ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ildən beş ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

## Laqeydlik yolverilməzdir

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva koronavirusla bağlı xalqa müraciət edib. Mehriban Əliyeva hər kəsi vətəndaş məsuliyyəti nümayiş etdirməyə, Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyə və tələblərinə ciddi riayət etməyə çağırıb: **"Hamınızdan xahiş edirəm, öz böyüklərinizi qoruyun! Virusa yoluxmuş insanların mütləq əksəriyyətində xəstəlik yüngül formada keçir və sağalma ilə nəticələnir. Daha çox yaşlı nəslin nümayəndələri, xroniki xəstəliklərdən əziyyət çəkənlər, immuniteti zəif olanlar xüsusi risk qrupuna aiddir. Biz, azərbaycanlılar həmişə böyüklərimizə xüsusi qayğı və hörmətlə yanaşmışıq, onları həssaslıqla qorumuşuq. Əminəm ki, üzləşdiyimiz bu vəziyyətdə biz daha diqqətli olacağıq. Bu gün laqeydlik yolverilməzdir".**

Azərbaycan koronavirusla mübarizədə hər cür potensiala malikdir. Dövlət qurumlarının bu məsələdə operativ fəaliyyəti, təxirəsalınmaz tədbirlərin, o cümlədən operativ şəkildə sosial izolyasiya mexanizminin işə salınması göstərir ki, hər bir vətəndaşın təhlükəsizliyi və sağlamlığı prioritetdir. Bu qlobal pandemiya həm də milli təhlükəsizlik məsələsidir. Ona görə Mehriban Əliyevanın qeyd etdiyi kimi, laqeydlik yolverilməzdir və hər kəs diqqətli olmalı, vətəndaş məsuliyyəti nümayiş etdirməlidir.

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

# Qlobal pandemiyadan qorunmaq Azərbaycan dövlətinin prioritet məsələsidir

Qlobal pandemiya elan edilən yeni koronavirusa (COVID-19) qarşı dünya səfərbər olub. Dünya Səhiyyə Təşkilatının (DST) ekspertlərinin də qeyd etdiyi kimi, Azərbaycan hazırkı qlobal təhlükənin öz əhalisinə təsirini mümkün qədər minimuma endirmək üçün ən səmərəli tədbirlər həyata keçirən ölkələrdən biridir. Vətəndaşların layiqli həyat şəraitinin təmin edilməsi, onların təhlükəsizliyinin etibarlı müdafiəsi və hazırkı qlobal problemin təsirindən qorunması Azərbaycan dövləti üçün ən vacib və prioritet məsələdir.

Birinci vitse-prezident Mehriban Əliyeva koronavirusla bağlı Azərbaycan xalqına müraciətində bir daha vurğulayıb ki, ölkəmizdə bütün qüvvələr hadisələrin ən pis yöndə inkişafının qarşısının alınmasına səfərbər olunub. Bütün dövlət strukturları mobilizasiya olunub və birgə fəaliyyət göstərir.

Mehriban xanım Əliyeva bütün həmvətənlərimizi vətəndaş məsuliyyəti nümayiş etdirməyə, Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyə və tələblərinə ciddi riayət etməyə çağırıb.

## Xaricdəki vətəndaşlarımızın ölkəyə qaytarılması üçün çarter reyslər həyata keçirilir

Azərbaycanda tətbiq olunan sosial izolyasiya tədbirlərinə əsasən, ölkə üzrə bütün kütləvi tədbirlər, o cümlədən mədəni-idman tədbirləri təxirə salınıb, artıq təyin olunmuş tədbirlərin tarixi dəyişdirilib. Kino, muzey və teatrların, əyləncə mərkəzlərinin, idman zallarının fəaliyyəti dayandırılıb.

AZAL martın 18-nə keçən gecədən etibarən Azərbaycan vətəndaşlarının qaytarılması üçün çarter reysi yerinə yetirir.

"Azərbaycan Hava Yolları" QSC-dən verilən məlumata görə, AZAL aviaşirkəti İstanbul-Bakı reysi ilə 230 nəfər, Roma-Bakı reysi ilə 161 nəfər sərnişini vətənə gətirib.

Xatırladaq ki, daha əvvəl Türkiyədən dörd çarter reysi ilə 868 nəfər Azərbaycan vətəndaşı gətirilib. Həmyerlilərimizin vətənə qaytarılması üçün çarter reysləri davam edir.

Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasındakı dövlət sərhədi müvəqqəti bağlanıb. Ötən gün saat 00:00-dan etibarən iki ölkə arasında gediş-gəliş məhdudlaşdırılıb. Martın 17-də isə Moskvanın Domodedovo hava limanından 23:45-də sonuncu müntəzəm Moskva-Bakı aviareysi həyata keçirilib. Martın 18-dən etibarən Rusiyada olan Azərbaycan vətəndaşlarının vətənə qayıtması üçün çarter reyslərin həyata keçirilməsinə başlanılıb.

Moskvadan Bakıya yalnız Azərbaycan vətəndaşlarını daşıyacaq üç çarter reysinin həyata keçirilməsi planlaşdırılır. Bu reyslər Moskvanın "Domodedovo" və "Vnukovo" hava limanlarından həyata keçiriləcək. Eyni ilə bir çarter reysi isə Sankt-Peterburqdan Bakıya həyata keçiriləcək.

## Ölkədaxili qatarların hərəkəti dayandırılır

Martın 19-dan martın 29-dək Bakı-Sumqayıt-Bakı və Bakı-Pirşağı-Bakı elektrik qatarları istisna olmaqla, ölkədaxili sərnişin qatarlarının hərəkəti dayandırılır.

"Azərbaycan Dəmir Yolları" QSC-dən verilən məlumata görə, Bakı-Gəncə-Bakı sürətli sərnişin qatarı, Bakı-Tbilisi-Bakı (Böyük Kəsikə kimi) sərnişin qatarı, Bakı-Böyük Kəsik-Bakı sərnişin qatarı, Bakı-Köçərli-Balakən-Bakı sərnişin qatarı, Bakı-Astara-Horadiz-Bakı sərnişin qatarı, Bakı-Yalama-Bakı elektrik qatarı və Bakı-Şirvan-Hacıqabul-Bakı elektrik qatarının hərəkəti dayandırılır.

Martın 18-dən 29-dək olan tarixlər üçün bu qatarlara alınan biletlər geri qaytarılarkən gediş haqqı məbləği tam şəkildə sərnişinlərə qaytarılır.

Bakı metrosunda dezinfeksiya işlərinin 3-cü mərhələsinə başlanılıb. "Bakı Metropoliteni"ndən verilən məlumata görə, qrafik üzrə ötən gecənin işləri 00:45-də "Sahil" stansiyasında başlanıb. Daha sonra "İçərişəhər" stansiyasında aparılıb. Stansiya və qatarlarla yanaşı, metropolitenə məxsus inzibati binalar da dezinfeksiya olunur.

## Koronavirusla bağlı 1542-0 nömrəli xətt istifadəyə verilib

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən vətəndaşların icbari tibbi sığorta ilə bağlı müraciətlərinə baxılması işinin səmərəli təşkili, əhaliyə göstərilən xidmətlərin effektivliyinin artırılması, agentliyin səlahiyyətinə aid olan məsələlərə operativ baxılması məqsədilə "1542" nömrəli "Çağrı" mərkəzi istifadəyə verilib.

Agentlikdən bildirilib ki, vətəndaşlar koronavirus epidemiyası, icbari tibbi sığorta sistemi, sığortahaqları, icbari tibbi sığorta çərçivəsində fəaliyyət göstərəcək dövlət tibb müəssisələri, Xidmətlər Zərfi, işə qəbul və s. barədə məlumat ala, qurumun və tibb müəssisələrinin fəaliyyətinə dair şikayət, tələb və təkliflərini bildirə bilərlər.

"Çağrı" mərkəzinin koronavirusla bağlı xətti (1542-0) 7 gün 24 saat, digər xətləri isə iş günləri saat 09:00-dan 18:00-dək fəaliyyət göstərir. Qeyd edək ki, "Çağrı" mərkəzi Novruz bayramındakı qeyri-iş günlərində də işləyəcək.

## Teledərslər bayrama görə dayandırılacaq

Təhsil Nazirliyinin dəstəyi ilə "Mədəniyyət" kanalında yayımlanan "Dərs vaxtı" proqramının yayımı müvəqqəti dayandırılacaq. Məlumata əsasən, bu gün teledərslərin keçiriləcəyi son gün olacaq. Dərslərə Novruz bayramı ilə əlaqədar fasilə verilir. Martın 24-dən həm Azərbaycan, həm də rus bölməsi üzrə teledərslərin yayımına yenidən başlanılacaq.

Qeyd edək ki, koronavirus təhlükəsinin yayılmasının qarşısının alınması məqsədilə təhsil müəssisələrində dərslərin dayandırılmasından sonra martın 11-dən Azərbaycan dili bölməsi, martın 16-dan başlayaraq isə həftənin 5 günü saat 10-dan 16-dək Təhsil Nazirliyinin dəstəyi ilə "Mədəniyyət" kanalında "Dərs vaxtı" adlı teledərslərə start verilib. Proqramda teledərslər bütün sinifləri əhatə edir, dərs mövzularına dair qısa izah və təlimatlar təqdim olunur.

Bildirək ki, peşə təhsil müəssisələrində təhsilalanlar üçün də teledərslər olacaq. Artıq ötən gündən teledərslərin çəkilişinə başlanır və bayramdan sonra həmin teledərslər yayıma başlayacaq.

## Karantində olanlara bayram sovqatı paylanıb

İlaxır çərşənbə münasibətilə Masallı Rayon Mərkəzi Xəstəxanasında karantində saxlanılan şəxslərə bayram sovqatı verilib. Xəstəxananın xüsusi geyimli işçiləri bayram xonçası ilə karantin otaqlarına daxil olub və karantində olan şəxslərin bayramını təbrik ediblər.

Nazirlər Kabineti yanında Operativ Qərargahın ötən gün verdiyi məlumata əsasən, Azərbaycan Respublikasında koronavirus infeksiyasına yoluxduğu müəyyən edilmiş 4 nəfər xüsusi rejimli xəstəxanalarda müalicə olunaraq sağalıb və evə buraxılıb.

## Dünyanın koronavirus mənzərəsi

Dünya Səhiyyə Təşkilatının COVID-19-la bağlı rəsmi statistikasına görə, dünyada virusa yoluxanların sayı 200 mindən çox, həlak olanların sayı 7989 nəfər, sağalanların sayı 82 779 nəfərdir. Pandemiya elan olunan epidemiya 167 ölkədə yayılıb.

Son bir gündə Çində yeni növ koronavirusdan ölənlərin sayı 11 nəfər, virusa yoluxanların sayı 13 nəfər artıb, daha 922 nəfər sağalıb.

Çinin Dövlət Gigiyena və Sağlamlıq Komitəsi açıqlama yayıb ki, epidemiyanın yayıldığı bütün zaman ərzində ölkədə yoluxmuş insanların sayı 81,1 minə çatıb, onlardan 69,7 min nəfəri sağalıb, 3237 nəfəri ölüb. Ölkədəki vəziyyət, demək olar ki, sabitdir: 31 bölgədən 14-də, ümumiyyətlə, heç bir yoluxma halı olmayıb, digər 16 əyalət, inzibati rayon və mərkəz tabeli şəhərlərdəki xəstəxanalarda yoluxanların sayı bir nəfərdən bir neçə yüz nəfərə qədər dəyişir.

İtaliyada son sutka ərzində yeni növ koronavirusun yaratdığı xəstəlik nəticəsində ölənlərin sayı 345 nəfər təşkil edib. Ölkənin Mülki Müdafiə Departamentinin rəhbəri Ancelo Borrelli açıqlamasında deyib ki, ilk yoluxma halının qeydə alındığı dövrdən bəri ümumilikdə 2,5 mindən çox insan bu virusun qurbanına çevrilib. Ölənlərin sayının 120 olduğu Lombardiya bölgəsinin məlumatlarına görə, İtaliyanın digər bölgələrində də ölənlərin sayı artır. İnfeksiyaya yoluxmanın tempi hələ ki azalmır. Pandemiyanın başlanğıcından bu yana yoluxanların sayı 31,5 minə çatıb, bundan əvvəl 27980 nəfərin yoluxduğu bildirilmişdi.

Türkiyədə koronavirusdan 89 yaşlı bir kişi dünyasını dəyişib və bununla da ölkədə ilk ölüm halı qeydə alınıb. Türkiyənin Səhiyyə naziri Fəxrəddin Qoca bildirib ki, ötən gün daha 51 nəfərdə koronavirus testlərinin nəticələri müsbət çıxıb, beləliklə yoluxma sayı 98-ə çatıb.

Gürcüstanda koronavirusa yoluxmuş şəxslərin sayı 38 nəfər olub. Ölkədə koronavirus şübhəsi ilə karantində saxlanılanların sayı isə 1130 nəfərdir.

Gürcüstanın Səhiyyə naziri Ekaterina Tikaradze bildirib ki, ölkədə koronavirus hallarının artması nəzarətdən çıxarsa, əhali kütləvi koronavirus testindən keçirilə bilər.

Nazir deyib ki, Gürcüstan bu məsələ ilə bağlı Çin və Cənubi Koreya ilə danışıqlar aparır və bu metodun tətbiqi ilə bağlı onlardan tövsiyələr gözləyir. O əlavə edib ki, koronavirusa yoluxma halları artmaqda davam edəcəksə, ölkədə tədris prosesinin yenidən dayandırılması tövsiyə olunacaq.

Ötən gün Ermənistanda koronavirusa yoluxanların sayı 84 nəfərə çatıb.

Almaniyada koronavirusun yeni növünə yoluxanların sayı 9877 nəfər olub. Son məlumata görə, virusa yoluxma nəticəsində 26 ölkə vətəndaşı ölüb.

ABŞ-da koronavirus infeksiyasından ölənlərin sayı 114 nəfərə çatıb. Federal dairələrdən və ştatların rəsmi nümayəndələrindən əldə olunmuş məlumatlara əsasən, ölkədə 6496 koronavirus daşıyıcısı qeydiyyata alınıb, 17 nəfər sağalıb. Yoluxma halı artıq bütün 50 ştatda və Kolumbiya federal dairəsində müşahidə edilib.

Serbiya Nazirlər Kabineti koronavirus infeksiyasının yayılması ilə əlaqədar ölkədə komendant saatının tətbiq edilməsi barədə qərar qəbul edib. Ölkə Prezidenti Aleksandar Vuçiç açıqlamasında deyib ki, axşam saat 20:00-dan səhər saat 05:00-dək bütün vətəndaşların küçələrdə gəzməsi qadağan olunur. Serbiya ordusu bütün sərhədlərə, xəstəxanalara, miqrasiya mərkəzlərinə nəzarəti öz üzərinə götürür. Ordu silahlı olacaq. Nazirlər Kabineti şəhərlərdə 65 yaşdan yuxarı, kəndlərdə isə 70 yaşdan yuxarı şəxslərin küçəyə çıxmasına qadağa tətbiq edib. 18 mart tarixində saat 10:00-dan etibarən 65 yaşdan yuxarı, kəndlərdə isə 70 yaşdan yuxarı insanların küçəyə çıxması tamamilə qadağan olunur.

Qeyd edək ki, Serbiyada koronavirusa yoluxanların sayı 83 nəfərə çatıb, iki nəfər ağır vəziyyətdədir. Ölkə epidemiya ilə mübarizə məqsədilə Rusiya və Çindən kömək istəyib.

Fransada epidemiyanın başlanğıcından bu günədək koronavirusun yeni növünə 7,7 mindən çox yoluxma halı qeydə alınıb, 175 nəfər virusdan ölüb. Ölkənin Səhiyyə İdarəsinin baş direktoru Jerom Salomonun açıqlamasında bildirilir ki, hazırkı dəqiqədə təsdiqlənmiş yoluxma hallarının sayı 7730-dur, 175 nəfər ölüb. Hər üç gündən bir yoluxma halları ikiqat artır. Onun sözlərinə görə, ölənlərin 7 faizi 65 yaşdan aşağı olan şəxslərdir. Yaşlı insanlarda xəstəliyin ağır keçməsi halları müşahidə edilir: "Ümumilikdə 2579 nəfər xəstəxanalara yerləşdirilib. Bu o deməkdir ki, 5 min insan sağalaraq evə buraxılıb".

Böyük Britaniyada son sutka ərzində koronavirusdan ölənlərin sayı 18 nəfər artaraq 71 nəfərə çatıb. İngiltərənin Milli Səhiyyə Sisteminin yaydığı məlumatda bildirilir ki, analizlərinin nəticələri müsbət çıxan daha 14 nəfər dünyasını dəyişib. Qeyd edək ki, bazar ertəsi günü axşam krallıqda virusdan ölənlərin sayının 53 nəfər olduğu deyilirdi. Bildirildi ki, ölənlərin hamısı digər xəstəliklərdən də əziyyət çəkən şəxslər olub. Onların hamısının yaşlı insanlar olduğu deyilir, yalnız bir nəfər 45 yaşında olub.

Afrika ölkəsi olan Qambiyada koronavirusa ilk yoluxma faktı qeydə alınıb.

## İranda 103 yaşlı qadın koronavirusa qalib gəlib

İranın Simnan şəhərində koronavirusa yoluxan 103 yaşlı qadın sağalıb. Simnan Səhiyyə Elmləri İnstitutunun rektoru Nəvid Danai bildirib ki, ahıl qadın xəstəxanada koronavirusdan müalicə olunaraq evə buraxılıb.

Məlumata görə, koronavirusdan yaşlıların sağalması hadisəsi əvvəl də olub. Çinin Uhan şəhərində 100 yaşlı, İranın Bəm şəhərində isə 91 yaşlı xəstə sağalıb.

Qeyd edək ki, İran Səhiyyə Nazirliyinin sözçüsü Kiyanuş Cahanpur ölkədə infeksiyadan ölənlərin sayının 988 nəfər olduğunu açıqlayıb.

O bildirib ki, daha 1 178 nəfərdə koronavirus aşkarlanıb və bununla da virus daşıyıcılarının sayı 16 169 nəfərə çatıb. K.Cahanpur, həmçinin 5 389 nəfərin koronavirusdan sağalaraq xəstəxanalardan buraxıldığını da vurğulayıb.

Hökumət koronavirusun kütləvi yayılması ilə əlaqədar olaraq, 17 əyalətə girişi qadağan edib.

## Peyvənd sınaqları

Martın 17-də ABŞ-da koronavirusa qarşı peyvəndin ilk klinik təcrübəsinə başlanılıb. Seattle-dəki Kaiser Permanente araşdırma mərkəzinin mütəxəssisləri dörd könüllüyə peyvəndin eksperimental dozasını vurublar. Peyvənddə virusdan götürülmüş genetik kod var. Preparat insana COVID-19 yoluxdurmur. Ekspertlər deyirlər ki, onun və hazırlanmaqda olan digər peyvəndlərin effekti bir neçə aya məlum olacaq.

Milli Səhiyyə İnstitutunun maliyyələşdirdiyi, heyvanlar üzərində təcrübə mərhələsi edilməyən bu sınağa eyni vaxtda bir neçə şəxs cəlb edilib. Məqsəd peyvənd nəticəsində immun sisteminin aktivləşdiyinə əmin olmaqdır. Peyvəndin istehsalçısı Moderna Therapeutics şirkəti bəyan edib ki, preparat yaxşı yoxlanılmış və müsbət nəticələr vermiş proses vasitəsilə hazırlanıb. Araşdırmaçılar ümid edirlər ki, yeni peyvənd sayəsində insan orqanizmini virusla mübarizəyə hazır vəziyyətə gətirə biləcəklər. Ancaq təcrübə uğurla nəticələnsə belə, peyvəndin kütləvi tətbiqi 18 ay sonra baş tuta bilər.

İtalyan həkimlər də təcrübə terapiyası çərçivəsində koronavirusun yeni növünün müalicəsi məqsədilə revmatoid artritdən preparat qəbuluna başlayacaqlar. İtaliya Farmasevtika Agentliyinin direktoru Nikola Maqrini məlumat verib ki, revmatoid artritdən preparat qəbuluna başlanıb və ilkin nəticələr ümidvericidir. Tədqiqat dərmanın təsiri araşdırılacaq 330 xəstəni əhatə edəcək. Mütəxəssisin sözlərinə görə, preparat virusa səbəb olan iltihab effektini aşağı salır.

Qeyd edək ki, koronavirus epidemiyasının mərkəzi Çinin Uhan şəhərində işləmək təcrübəsi olan bir qrup çinli mütəxəssis artıq İtaliyaya gəlib.

## Ölkəmizdə koronavirusla bağlı əhalini məlumatlandıran sayt istifadəyə verilib

Məlum olduğu kimi, hazırda bəzi xəbər saytları və sosial şəbəkələrdə koronavirusla bağlı əsası olmayan müxtəlif materiallar yayımlanır, onların bəziləri isə nəinki yanlışdır, hətta sağlamlıq üçün ciddi təhlükə törədir.

Elə bu səbəbdən Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi (İSİM ) koronavirus (COVID-19) xəstəliyi ilə mübarizə və profilaktika məqsədi ilə yeni sayt hazırlayıb. İzləyicilərin ixtiyarına verilən www.koronavirus.az veb saytında təsdiqlənmiş, sübutlu təbabətə əsaslanan materiallar yer alır.

Ölkəmizdə koronavirusla mübarizə ilə bağlı tətbiq olunan qaydalar təkcə dövlət orqanlarının deyil, ümumilikdə bütün cəmiyyətin, fərdi qaydada hər bir vətəndaşın üzərinə müvafiq məsuliyyət qoyur. Çünki bütün bunlar milli təhlükəsizlik və milli həmrəylik məsələsidir və tutduğu mövqedən, baxışlarından asılı olmayaraq hər bir vətəndaşdan maksimal şəkildə diqqətli və məsuliyyətli olmaq tələbi var.

Hər bir vətəndaş bilməlidir ki, tətbiq olunan qaydalar, ilk növbədə, onun və yaxınlarının təhlükəsizliyini, sağlamlığını təmin edən müvəqqəti və məcburi addımlardır. Buna görə də hamı qaydalara anlaşıqlı, dözümlü yanaşmalı, onları maksimum icra etməyə çalışmalıdır.

Koronavirus infeksiyasının qlobal pandemiya elan olunduğunu və virusun geniş yayılma sürətini nəzərə alaraq, vətəndaşlarımızı DST və Nazirlər Kabineti yanında Operativ Qərargahın tələb və tövsiyələrinə riayət etməyə çağırırıq.

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) cənub ərazi bölməsi üzrə koordinatoru, infeksion xəstəliklər uzmanı Fərrux Sədirov COVID-19-un əlamətlərini sadalayıb. O bildirib ki, yeni koronavirusun əlamətləri digər tənəffüs yolu xəstəliklərinə oxşardır və xüsusi əlamətləri yoxdur: "Dünya Səhiyyə Təşkilatının bu yaxınlarda verdiyi statistik rəqəmlərə baxsaq, yeni koronavirus üçün ən çox qeyd olunan əlamət qızdırmadır. İkinci sırada quru öskürək, üçüncü yorğunluq, halsızlıq, digər sıralarda isə bəlğəm, nəfəs darlığı, boğaz və qarın ağrısı kimi əlamətlər yer alır.

DST-nin Azərbaycan nümayəndəliyi koronavirus infeksiyasının törədə biləcəyi təhlükəni nəzərə alaraq əhaliyə müraciət edib. Beynəlxalq təşkilat bununla bağlı kampaniyaya başladığı #evdəqal həştəqi ilə insanları evdə qalmağa və həyatları xilas etməyə çağırıb: "Siz də təşəbbüsə qoşulun, koronavirusa yoluxma riskinizi azaldın".

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

# Cəbhə bölgəsində hərbi hissələrə ziyarətlər davam edir





Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən cəbhə bölgəsində səfərdə olan Müdafiə naziri general-polkovnik Zakir Həsənov, Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri, general-polkovnik Məhərrəm Əliyev və nazirliyin digər rəhbər heyətinin ön xətdə yerləşən bir sıra hərbi hissələrə səfəri davam edir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, cəbhə bölgəsində yerləşən hərbi hissələrin şəxsi heyəti ilə görüşlər keçirilib, qərargah binaları, əsgər yataqxanaları, tibb məntəqələri və digər hərbi obyektlər, həmçinin bölmələrin silahlanmasında olan zirehli döyüş texnikası, aviasiya eskadrilyasına və digər hərbi təyinatlı vasitələrə baxış keçirilib.

Görüşlər zamanı yaradılan şəraitlə tanışlıqdan sonra general-polkovnik Zakir Həsənov və general-polkovnik Məhərrəm Əliyev Novruz bayramı münasibətilə Ali Baş Komandanın təbriklərini hərbi qulluqçulara çatdırıblar. Söhbətlər zamanı hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlərdən danışılıb və bu işlərin bundan sonra da davam etdiriləcəyi diqqətə çatdırılıb. Hərbi qulluqçular və onların ailə üzvləri dövlət tərəfindən göstərilən diqqət və qayğıya görə Ali Baş Komandana minnətdarlıqlarını bildiriblər.

Sonra general-polkovnik Zakir Həsənov və general-polkovnik Məhərrəm Əliyev hərbi hissədə çalışan mülki işçilərlə görüşərək şəxsi heyətin təminatı ilə maraqlanıb, onları bayram münasibətilə təbrik edib, işlərində müvəffəqiyyətlər arzulayıblar.

# Yeni Azərbaycan Partiyası koronavirusa qarşı mübarizəyə qoşulur

Yeni Azərbaycan Partiyası özünün çoxsaylı üzvlərinin təkliflərini nəzərə alaraq koronavirus xəstəliyinə qarşı mübarizədə ehtiyacı olan vətəndaşlara Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyələrinin yerinə yetirilməsi işində mümkün köməkliyin göstərilməsi, zəruri məlumatların çatdırılması, maarifləndirmə işlərinin aparılması məqsədilə təşkilatın bütün strukturlarını səfərbər edib.

Bu barədə AZƏRTAC-a Yeni Azərbaycan Partiyasından məlumat verilib.

Bildirilir ki, dünyanı ciddi təşvişə salan, minlərlə insanın ölümünə səbəb olan koronavirus pandemiyasına qarşı mübarizə Azərbaycan hökumətinin fəaliyyətində ön plana çıxıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığı əsasında Nazirlər Kabineti yanında yaradılmış Operativ Qərargah koronavirusun yayılmasının qarşısının alınması istiqamətində gərgin iş rejimində səmərəli fəaliyyət göstərir. Epidemioloji vəziyyət ciddi nəzarət altında saxlanılır, virusa yoluxma hallarının qarşısının alınması, zəruri profilaktik tədbirlərin görülməsi ilə əlaqədar vacib addımlar atılır, əhaliyə lazımi məlumat və tövsiyələr verilir. Təcrübə göstərir ki, bütün cəmiyyət və ayrılıqda hər bir vətəndaş virusa yoluxmaların qarşısının alınmasında mühüm rol oynaya bilər və oynamalıdır.

Həmçinin qeyd olunur ki, Yeni Azərbaycan Partiyasının gəncləri sosial şəbəkələr üzərindən Operativ Qərargahın tövsiyələrinin əhali arasında yayılmasına köməklik göstərmək məqsədilə aksiyalar təşkil etməyi qərara alıb.

AzerGold
QAPALI SƏHMDAR CƏMİYYƏTİ

# “AzerGold” QSC-də Müşahidə Şurasının növbəti toplantısı keçirilib

**Martın 18-də “AzerGold” Qapalı Səhmdar Cəmiyyətinin (QSC) Müşahidə Şurasının yeni tərkibdə ilk iclası keçirilib. İclas koronavirus (COVID-19) infeksiyasına qarşı mübarizənin təşkili məqsədilə Baş Nazir Əli Əsədovun dövlət qurumlarının rəhbərləri üçün xüsusi rejimdə iş normalarına dair imzaladığı təlimatların tələblərinə uyğun olaraq videobağlantı vasitəsilə təşkil edilib.**



Müşahidə Şurasının cari ildə keçirilən ilk toplantısında cəmiyyətin ötən ildə əldə etdiyi nəticələr, hasilat, kəşfiyyat və ümumilikdə iqtisadi göstəriciləri geniş təhlil olunub. “AzerGold” QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov Müşahidə Şurasının üzvlərinə 2020-ci il üzrə fəaliyyət planı və qarşıda duran vəzifələr barədə məlumat verib.

Qeyd edilib ki, “AzerGold” Qapalı Səhmdar Cəmiyyəti fəaliyyətə başladığı dövrdən etibarən istər hasilat, istər ixrac və satış, geoloji kəşfiyyat, istərsə də digər sahələrdə çoxsaylı uğurlar əldə etmişdir. Hasilata başlanılan ilk ildən mənfəətlə çalışan cəmiyyət qısa zamanda nəinki dağ-mədən sahəsinin, bütövlükdə ölkənin qeyri-neft sektorunun liderlərindən birinə çevrilib. İclasda həmçinin 2020-2025-ci illər ərzində istismara veriləcək yataqlar, proqnozlaşdırılan iqtisadi səmərəlilik və digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Müşahidə Şurasının üzvləri tərəfindən “AzerGold” Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyəti və 2019-cu ildə əldə edilən nailiyyətləri müsbət qiymətləndirilib.

# Azərbaycanda koronavirusa yoluxmuş daha 4 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasına yoluxduğu müəyyən edilmiş daha 4 nəfər xüsusi rejimli xəstəxanalarda müalicə olunaraq sağalıb və evə buraxılıb.

Bu barədə AZƏRTAC-a Azərbaycan Respublikası Nazirlər Kabinetinin yanında Operativ Qərargahından məlumat verilib.

Hazırda Azərbaycanda 23 nəfər aktiv koronavirus xəstəsi xüsusi rejimli xəstəxanalarda həkim nəzarəti altındadır, onların müalicəsi ilə bağlı müvafiq tədbirlər davam etdirilir.

Məlumatda deyilir: “Koronavirus infeksiyasının qlobal pandemiya elan olunduğunu və virusun geniş yayılma sürətini nəzərə alaraq, vətəndaşlarımızı Ümumdünya Səhiyyə Təşkilatı və Nazirlər Kabineti yanında Operativ Qərargahın tələb və tövsiyələrinə riayət etməyə çağırırıq”.

## Elm xadimləri

# Klassik ənənələrlə yaşayan alim

Görkəmli tarixçi-şərqşünas alim, tarix elmləri doktoru, professor, nəcib, xeyirxah, ləyaqətli insan, tanınmış qəzəlxan Şahin Fazil oğlu Fərzəliyev!

Respublikamızda Azərbaycanın orta çağlar tarixi üzrə tanınmış mütəxəssislərindən biri, 38 kitabın və 300-dən çox yüksək elmi dəyərə malik məqalənin müəllifi, tanınmış qəzəlxan Şahin Fazilin bu günlərdə 80 yaşı tamam olur.

Onu başqalarından fərqləndirən, bizlərə sevdirən xüsusiyyəti, bənzərsizliyi - istər sovet dönəmində, istərsə də müstəqillik dövründə alimin fikirlərinin, baxışlarının dəyişməz qalmasıdır. Sifarişlə tarix yazmaqdan uzaq olan Şahin müəllimin həmişə başlıca amalı - Azərbaycanın Orta əsrlər tarixi məsələlərini şərəflə yazmasıdır.

Bütün ömrünü AMEA Tarix İnstitutu ilə bağlayan və hazırda bu elmi araşdırma ocağında “Mənbəşünaslıq və tarixşünaslıq” şöbəsinə rəhbərlik edən professor Şahin Fərzəliyev ölkəmizin görkəmli ortaəsrşünaslarından biri, sanballı əsərlər və elmi nəticələrinə görə tarix elmində seçilən-sayılan tarixçimizdir.

Ş.Fərzəliyev 1940-cı il martın 27-də Azərbaycanın dilbər güşələrindən biri olan Quba şəhərində dünyaya göz açmışdır. O, 1959-cu ildə Şərq tarixinə və mədəniyyətinə, xüsusilə ədəbiyyata olan həvəsini nəzərə alaraq sənədlərini Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinə verir və Fars filologiyası şöbəsinə daxil olur, təhsilini fərqlənmə diplomu ilə başa vurur. 1963-cü ildə hələ 5-ci kursda oxuyarkən istedadlı gənc mütəxəssis kimi xaricə - Əfqanıstana tərcüməçi vəzifəsinə göndərilən Şahin Fərzəliyev 1988-ci ilədək müəyyən fasilələrlə 13 il ərzində Əfqanıstanın müxtəlif şəhər və vilayətlərində yaşayıb fəaliyyət göstərir. Lakin tarix elminə olan maraq və həvəs onu tədricən elm sahəsinə istiqamətləndirir və o, həyatının əsas hissəsini məhz bu sahəyə həsr edir.

Ş.Fərzəliyev tarix sahəsində elmi fəaliyyətə başlamaq arzusu ilə 1970-1973-cü illərdə Azərbaycan SSR Elmlər Akademiyası Tarix İnstitutunun aspiranturasında təhsilini davam etdirir. Bu dövrdə Azərbaycan Səfəvi dövlətinin tarixinə aid farsdilli mənbələri tədqiq, tərcümə və elmi dövriyyəyə cəlb etməklə həmin sahənin mənbəşünaslıq bazasının zənginləşdirilməsinə böyük ehtiyac duyulurdu. Təsadüfi deyil ki, Şahin Fərzəliyevin namizədlik dissertasiyasının mövzusu da bu istiqamətdə atılan uğurlu addımlardan biri idi. Belə ki, o, mərhum professor Oqtay Əfəndiyevin elmi rəhbərliyi altında XVI əsr azərbaycanlı tarixçi “Həsən bəy Rumlunun “Əhsənüt-təvarix” əsəri Azərbaycan tarixinin mənbəyi kimi” adlı namizədlik dissertasiyasını 1974-cü ildə müvəffəqiyyətlə müdafiə edib, sonrakı elmi fəaliyyətini bu sahədə tədqiqatlar aparmaqla davam etdirdi. 1983-cü ildə onun “Azərbaycan XV-XVI əsrlərdə (Həsən bəy Rumlunun “Əhsənüt-təvarix” əsəri əsasında)” adlı monoqrafiyası nəşr olundu.

Tarix İnstitutunda bütün fəaliyyəti dövründə Ş.Fərzəliyev Azərbaycanın XV-XVI əsr dövlətlərinin Orta əsr qüdrətini bugünkü nəsillərə çatdırmaq və öz elmi prinsiplərini sübuta yetirmək üçün Azərbaycanın və İranın tarixinə dair onlarla yeni əlyazmaları, ilk mənbələri aşkara çıxarmış, onları geniş oxucu və tədqiqatçıların ixtiyarına vermişdir.

Professorun Azərbaycan mənbəşünaslığı sahəsində xidmətləri olduqca böyükdür. Görkəmli alim XX əsrin 80-ci illərinin sonlarından başlayaraq Səfəvilər dövlətinin tarixi ilə bağlı farsdilli qaynaqların və Osmanlı mənbələrinin tədqiqi və tərcüməsi ilə məşğul olmuşdu. Osmanlı müəllifi Firudin Əhməd bəyin topladığı “Münşəate-səlatin”(“Sultanlara aid yazışmalar”) adlı məktublar məcmuəsindən Çaldıran savaşı ərəfəsində I Sultan Səlim ilə I Şah İsmayılın məktublarını; polyak səyyahı Yan Tadeuş Kruşinskinin şəxsi müşahidələri əsasında Səfəvilər dövlətinin süqutu, paytaxt İsfahan şəhərinin əfqanlar tərəfindən işğal olunması hadisələrindən bəhs edən “Xristian səyyahın tarixi” əsərini, Jozef Tiflisinin “Vaqiati-Mir Veys və Şah Hüseyn” adlı əsərini doğma dilimizə tərcümə edərək nəşr etdirmişdi.

XX əsrin 90-cı illərində Şahin müəllim doktorluq mövzusu üzərində gərgin işləməyə başladı. 1994-cü ildə onun “Azərbaycan və Osmanlı imperiyası” adlı monoqrafiyası işıq üzü gördü. Monoqrafiyada dövrün epistolyar qaynaqlarından geniş istifadə olunmaqla XV-XVI əsrlərdə Azərbaycan dövlətləri ilə Osmanlı imperiyası arasındakı qarşılıqlı əlaqələrə aydınlıq gətirildi. Tarixşünaslığımızda ilk dəfə olaraq Şahin müəllim tərəfindən Osmanlı müəllifi Firudin bəyin “Münşəate-səlatin” əsərindəki diplomatik yazışma sənədləri, rəsmi məktubları tədqiqata cəlb edilərək Azərbaycan dövlətlərinin (Qaraqoyunlu, Ağqoyunlu, Şirvanşahlar, Səfəvilər) Osmanlı imperiyası ilə qarşılıqlı əlaqələri dərindən araşdırılmış, bəhs olunan Azərbaycan dövlətlərinin regionda baş verən hərbi-siyasi hadisələrdəki mövqeyi aydınlaşdırılmışdır.

1996-cı ildə isə Şahin Fərzəliyev XV-XVI əsrlər Azərbaycan dövlətlərinin (Qaraqoyunlu, Ağqoyunlu, Şirvanşahlar və Səfəvilər) Osmanlı imperiyası ilə münasibətlərinin tədqiqinə həsr olunmuş “Azərbaycan və Osmanlı imperiyası XV-XVI əsrlərdə” adlı doktorluq dissertasiyasını uğurla müdafiə etmişdir. O, 1999-cu ildə daha da təkmilləşdirilmiş olan “Azərbaycan və Osmanlı imperiyası” adlı fundamental monoqrafiyasını elmi ictimaiyyətin diqqətinə çatdırmışdı.

Yeddi cildlik “Azərbaycan tarixi”nin III cildinin müəlliflərindən biri olan Şahin müəllim Azərbaycanın Orta əsrlər tarixinin müxtəlif məsələlərinin araşdırılmasında öz sözünü deməyi bacarmış tarixçilərdəndir.

Onun tarix elminə verdiyi ən böyük töhfə Orta əsr görkəmli Azərbaycan tarixçisi İsgəndər bəy Münşinin fars dilində yazdığı “Dünyanı bəzəyən Abbasın tarixi” (“Tari-



xi-aləmarayi-Abbasi”) əsərinin ana dilimizə tərcüməsidir. Azərbaycan Səfəvilər dövlətinin yaranmasından, I Şah Abbasın hakimiyyəti dövrü də daxil olmaqla tariximizi nəql edən və səfəvişünaslığın ən sanballı mənbələri arasında xüsusi yeri olan bu qiymətli ilkin mənbədən dünya ölkələrinin bir çox məşhur tarixçiləri, o cümlədən Azərbaycan tarixçiləri Azərbaycan, Cənubi Qafqaz, İran və digər Yaxın və Orta Şərq ölkələrinin tarixindən bəhs edərkən İsgəndər bəy Münşiyə dönə-dönə istinad etmişlər.

Bu qiymətli əsərin müxtəlif hissələri osmanlı türkcəsinə, ingilis, rus və Azərbaycan dillərinə tərcümə olunduğu halda, əsərin bütöv olaraq ana dilimizə tərcüməsi son dövrədək mövcud deyildi. Bu əsəri hələ 1939-1950-ci illərdə M.Əfəndizadə, F.Babayev, A.Qasımov və Ə.Rəhmani Azərbaycan dilinə çevirməyə təşəbbüs göstərsələr də, müxtəlif səbəblərdən bu mənbənin tərcüməsi başa çatdırılmamışdı. Sonralar həmin iş Tarix İnstitutunun elmi tədqiqat planına daxil edilmiş və onun bütövlükdə deyil, yalnız Azərbaycana aid məlumatlarının tərcümə olunması qərara alınmışdı.

Məsələnin vacibliyini nəzərə alaraq, 2004-cü ildə Tarix İnstitutunun direktoru vəzifəsinə təyin olunan professor Yaqub Mahmudovun təklifi ilə institutun Elmi Şurası İsgəndər bəy Münşinin fars dilində yazdığı həmin əsərinin bütöv halda tərcümə olunması haqqında qərar qəbul etdi və həmin qərarın icrasına başlanıldı. İnstitutda həyata keçirilən bu qərar nəticəsində AMEA-nın müxbir üzvü, mərhum professor O.Ə.Əfəndiyev və onun yetirməsi N.S.Musalı tərəfindən əsərin tərcümə olunmuş birinci cildi 2009-cu ildə nəşr olundu.

Lakin orijinalda 3 cilddən ibarət olan İsgəndər bəy Münşinin “Tarixi-aləmarayi-Abbasi” əsərinin bütöv halda Azərbaycan dilinə tərcüməsi və nəşri məhz professor Şahin Fərzəliyevin gərgin əməyi sayəsində mümkün oldu. Bu əsər elmi şərhlərlə birlikdə ümumilikdə 2505 səhifədən ibarət olub iki kitab şəklində 2010-cu və 2014-cü illərdə nəşr olundu.

Professor Şahin Fərzəliyev Azərbaycan salnaməçilik məktəbinin incilərindən olan “Dünyanı bəzəyən Abbasın tarixi” əsərini ömrünün 14 ili ərzində gərgin zəhmət və yüksək tərcüməçilik məhарəti hesabına ana dilimizdə ərsəyə gətirdi, mükəmməl elmi şərhlərlə təchiz etdi. Bu böyük uğuru nəzərə alaraq, müəllifi deyil, mütərcimi olduğu halda belə bu əsəri Şahin Fərzəliyevin elmi fəaliyyətinin “şah əsəri” adlandıra bilərik.

Sevindirici haldır ki, yorulmaz alim bu nailiyyətilə kifayətlənməyib, hazırda digər görkəmli Orta əsr Azərbaycan tarixçisi Həsən bəy Rumlunun “Əhsənüt-təvarix” (“Tarixlərin ən yaxşısı”) əsərinin doğma dilimizə tərcüməsini də uğurla başa çatdırmaqdadır. Əsərin birinci cildinin şərhləri yazılmış və hazırda nəşrə hazırlıq işləri başa çatmaq üzrədir. “Əhsənüt-təvarix” əsərinin ikinci cildinin tərcüməsi də tam bitmişdir və onun şərhlərinin yazılması inanırıq ki, Ş.Fərzəliyev tərəfindən yaxın zamanlarda uğurla tamamlanacaq və əsər çap olunaraq tarixçilərimizin ixtiyarına veriləcəkdir. Bu, Şahin müəllimin 80 illik yubileyinə ən yaxşı ərmağan olacaqdır.

Professor Şahin Fərzəliyevin doğma torpağa, elinə-obasına ülvi məhəbbətlə bağlı olması alimi öz doğma diyarının tarixini yazmağa sövq etmişdi. Qubanın tarixi keçmişi həmişə alimin maraq dairəsində olduğu üçün, özünün qeyd etdiyi kimi, Azərbaycan dövlətlərinin Osmanlı imperiyası ilə münasibətlər tarixini tədqiq etdiyi illər ərzində müxtəlifdilli ilkin mənbələrdə Quba haqqında mövcud olan məlumatların qeydiyyatını aparmışdı. Onun “Quba tarixi” adlı elmi monoqrafiyası ilk dəfə 2001-ci ildə işıq üzü görmüş, 2017-ci ildə isə təkmilləşdirilmiş ikinci nəşri çapdan çıxmışdır.

Professor Şahin Fərzəliyevin həyatında və yaradıcılığında “əfsanələr və reallıqlar dünyası” adlandırdığı Əfqanıstan mövzusu dərin iz buraxmışdır. O, Əfqanıstanda fəaliyyət göstərdiyi illərdə Azərbaycan şairlərinin əsərlərini farscaya çevirərək Kabulda, əfqan şair və yazıçılarının əsərlərini isə Azərbaycan dilinə çevirərək Bakıda nəşr etdirmişdir.

Şahin Fərzəliyev istedadlı bir şair kimi zəngin ədəbi yaradıcılığı, müasir Azərbaycan poeziyasında seçilən mövqeyi, ədəbi dilimizə olan təəssübkeşliyi ilə ədəbiyyat tariximizdə də özünəməxsus bir iz qoymuşdur.

Onun məqsədi poetik yaradıcılığında forma etibarilə klassik ədəbi ənənələrə sadiq qalaraq onlara yeni ruh, yeni nəfəs verməklə yaşatmaq, yeni nəsillərə sevdirməkdir. Məhz bu düşüncə şairi XX əsrin sonlarında Azərbaycan ədəbiyyatında ilk mətbu “Divan”ını yaratmağa sövq etmişdir.

İndiyədək şairin dörd divanı işıq üzü görmüş və beşinci divanı çap üçün nəşriyyata təqdim olunmuşdur.

Tarix İnstitutunda işləməklə yanaşı, professor Şahin Fərzəliyev uzun illər ölkəmizin müxtəlif dövlət universitetlərində (Bakı, Lənkəran, Sumqayıt) tarixdən mühazirələr oxumuş, dövlət imtahan komissiyalarının sədri seçilmiş, bir neçə Elmi Şuranın üzvü olmuş, 13 dissertasiya işinə rəhbərlik etmiş, 50-yə yaxın tarix üzrə fəlsəfə doktoru və tarix elmlər doktoru dissertasiyalarına opponentlik etmişdir. O, Tarix İnstitutu nəzdində fəaliyyət göstərən ixtisaslaşdırılmış müdafiə şurasının üzvüdür.

Yazmaq istədikləri yazdıqlarından daha çox olan, daima yeni axtarışlar aparmaq, tarixin ənginliklərinə baş vurmaq və yazıb-yaratmaq əzmində olan Şahin Fərzəliyev mənalı və şərəfli ömrünün müdrik çağlarını yaşayır. Qoy bu çağlar qərinələrə dönsün, həmişə işıqlı və sevincli olsun!

***Tofiq NƏCƏFLİ,***
***A.A.Bakıxanov adına Tarix İnstitutunun elmi işlər üzrə direktor müavini, tarix üzrə elmlər doktoru***

# DST koronavirusla bağlı göstərdiyi ciddi səylərə görə Azərbaycan hökumətinə minnətdarlıq edir

Dünya Səhiyyə Təşkilatı (DST) qurumun məsləhətçisi qismində Azərbaycana səfər etmiş professor Önder Ergönülün “HaberTürk” telekanalına müsahibəsi zamanı verdiyi açıqlama ilə bağlı bəyanat yayıb.

Təşkilatın Azərbaycandakı nümayəndəliyindən AZƏRTAC-a daxil olan bəyanatda bildirilir ki, həmin müsahibədəki açıqlamalar Ergönülün şəxsi fikirləridir və DST-nin rəsmi mövqeyini əks etdirmir.

Bəyanatda deyilir: “DST-nin mandatı hər bir ölkədə, o cümlədən Azərbaycanda inkişaf üçün sahələri müəyyənləşdirmək, COVID-19 təhlükəsinə qarşı cavab tədbirlərinin gücləndirilməsinə dəstək göstərməkdir. DST-nin Azərbaycandakı ölkə ofisi, regional ofis və baş qərargahla sıx təmasda olmaqla, hökumətlə kliniki idarəetmə, infeksiyaların qarşısının alınması və nəzarət, eləcə də risk kommunikasiyası kimi önəmli sahələrdə əməkdaşlıq edir.

Dünya Səhiyyə Təşkilatı fürsətdən istifadə edərək COVID-19-la bağlı milli və beynəlxalq səviyyədə göstərdiyi ciddi səylərə görə Azərbaycan hökumətinə dərin minnətdarlığını bildirir”.

# Gəncə üsyanının 100 illiyi ilə bağlı yeni tədqiqat əsəri nəşrə hazırlanır

**Gəncə şəhərində 1920-ci ildə kommunist özbaşınalığına qarşı baş vermiş üsyanın 100 ili tamam olur.**

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Gəncə Bölməsindən AZƏRTAC-a bildirilib ki, Gəncə üsyanının tarixi köklərinin elmi əsaslarla araşdırılması, xalqımızın qəhrəmanlıq mübarizəsi tarixində onun yeri və rolunun hərtərəfli tədqiq edilərək yeni bir monoqrafiyanın çap olunması nəzərdə tutulur.

Kitabın müəllifi Gəncə Bölməsinin Diyarşünaslıq İnstitutunun şöbə müdiri, professor Həsənbala Sadıqov yeni nəşrin ərsəyə gətirilməsi məqsədilə geniş tədqiqat işləri aparıldığını, arxivlərdə işlədiyini, xeyli materiallar topladığını və bu tarixi üsyanla bağlı bir sıra elmi işçilərlə məsləhətləşmələr apardığını bildirib. Qeyd edib ki, Gəncə üsyanının 100 illiyi münasibətilə nəşrə hazırlanan bu kitab Azərbaycan Xalq Cümhuriyyəti dövründə xalqımızın qəhrəmanlıq mübarizəsi salnaməsinin daha bir səhifəsinə işıq salmaqla tariximizin dərindən öyrənilməsinə və tədqiqinə sanballı töhfə olacaq.

Üsyan 1920-ci il mayın 25-dən 26-na keçən gecə başlayıb. Qırmızı ordu hissələri qısa müddətdə şəhərin mühüm məhəllələrini nəzarətə götürüb. Buna baxmayaraq, mayın 29-da üsyançıların əks-hücumları bolşevikləri ağır vəziyyətə salıb və onlar böyük itki veriblər. Ağır məğlubiyyətdən sonra Qırmızı ordunun komandanlığı Gəncəyə xeyli əlavə qüvvə gətirib və yenidən hücuma keçib. Mayın 31-də gərgin və qeyri-bərabər döyüşdə Gəncə üsyanı yatırılıb, şəhəri tərk etmək imkanı olmayan üsyançılar və dinc əhali mühasirəyə alınaraq kütləvi şəkildə güllələnib. Gəncə üsyanının səbəbləri, tarixi əhəmiyyəti elmi cəhətdən araşdırılmayıb, yalnız bir neçə məqalə və monoqrafiya dərc olunub, mətbuatda informasiya xarakterli məlumatlar verilib. Bolşevik hakimiyyəti Azərbaycanda bərqərar olduqdan sonra bu tarixi faktlar bilərəkdən unutdurulub, bu barədə danışanlar və yazanlar cəzalandırıldığı üçün tam tədqiq olunmayıb və həqiqi qiymətini almayıb.

# Müdafiə Nazirliyi vətəndaşların qəbulunu və qeydiyyatını elektron qaydada və telefon vasitəsilə həyata keçirir

Koronavirus (COVID-19) infeksiyasının yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədilə yaradılan Nazirlər Kabineti yanında Operativ Qərargahın apardığı mübarizə tədbirləri ilə əlaqədar Müdafiə Nazirliyi vətəndaşların qəbulunu və qeydiyyatını müvəqqəti olaraq yalnız elektron qaydada və telefon vasitəsilə həyata keçirməyə başlayıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müraciətlərin fasiləsiz qəbulunun və baxılmasının operativliyinin təmin edilməsi məqsədilə vətəndaşların nazirliyin pressmd@mod.gov.az, dti@mod.gov.az elektron poçt ünvanlarına və ya (012) 912 qaynar xətt nömrəsinə müraciət etmələri xahiş olunur.

# Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Noyemberyan və İcevan rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı, Cəfərli, Bala Cəfərli kəndlərində, Berd rayonunun Ayqedzor kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Muncuqlu kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

# Paşinyanın planları alt-üst oldu

## Ermənistanda referendum baş tutmadı

Bu gün Ermənistanda iqtisadiyyatdan tutmuş siyasət və digər sahələrə qədər vəziyyətin daha sürətlə pisləşməsi özünü qabarıq göstərir. Belə durumda ən çox diqqəti cəlb edən məqamlardan biri də baş nazir Paşinyan və Konstitusiya Məhkəməsi ətrafındakı gərginliyin ən yüksək həddə çatmasıdır. Bunu son hadisələr də göstərir. Konstitusiya Məhkəməsinin sədri və üzvlərinin istefasına dair 5 aprel tarixində keçiriləcək referendum təxirə salınıb. Ermənistan Mərkəzi Seçki Komissiyası bəyanat yayaraq Konstitusiya islahatları ilə bağlı referendumun keçirilməsinin müəyyən vaxtadək təxirə salındığını açıqlayıb.

Baş nazir Nikol Paşinyan isə bildirib ki, referendum fövqəladə vəziyyət şəraitində keçirilə bilməz. Referendum fövqəladə vəziyyət rejimindən 50 gün əvvəl, 65 gündən gec olmayaraq keçirilməlidir. Referendumun təbliğat prosesi bitdiyi yerdən başlanacaq.

Xatırladaq ki, Konstitusiya Məhkəməsinin yeni tərkibini müəyyən etmək üçün nəzərdə tutulan referendum barədə qanun layihəsinin lehinə 88 deputat, əleyhinə isə 15 deputat səs verib. "Çiçəklənən Ermənistan" fraksiyası səsvermədə iştirak etməyib. Böyük əksəriyyəti baş nazir Nikol Paşinyanın Vətəndaş Sazişi Partiyasının üzvü olan "Mənim addımım" bloku 132 deputatdan ibarət parlamentdə 88, "Çiçəklənən Ermənistan" Partiyası 26, "İşıqlı Ermənistan" Partiyası 17 mandatla təmsil olunur.

Qeyd edək ki, Ermənistan Konstitusiyasına "Mənim addımım" fraksiyası tərəfindən hazırlanmış düzəlişlərə əsasən, Konstitusiya Məhkəməsinin sədrinin və üzvlərinin səlahiyyətlərinə xitam verilməsi nəzərdə tutulur. Bu dəyişikliklər 9 hakimdən ikisinə - Vaqe Qriqoryanla Armen Dilanyana şamil edilmir. Digər 7 hakim və sədr Hrayr Tovmasyan isə yeni düzəlişlərin əsas hədəfidir.

Bu arada onu da qeyd edək ki, koronavirusla əlaqədar yaranan vəziyyət ucbatından iqtisadiyyatın pisləşməsi "iqtisadi inqilab" vədi verən Paşinyan hökumətini həddən artıq çətin vəziyyətə salıb. "Qraparak" qəzetinin yazdığına görə, vəziyyətdən çıxmaq üçün hakimiyyət nümayəndələri keçmiş hökumətin təmsilçilərinə müraciət ediblər. Parlamentdə hazırkı hökumət nümayəndələri ilə sələflərinin qapalı görüşü keçirilib. Görüşə keçmiş maliyyə naziri Vardan Aramyan, baş nazirin keçmiş müavini Vaçe Qabrielyan, maliyyə məsələləri üzrə ekspert Ovannes Avetisyan və iqtisadçı Aşot Xurşudyan dəvət edilib. Görüşdə əsas müzakirə mövzusu ölkəni iqtisadi tənəzzüldən qurtarmaq yolları olub.

Erməni siyasətçilərini ən çox narahat edən başlıca məsələ Ermənistanın ölməkdə olan iqtisadiyyatını böhran zamanı heç olmasa az da olsa ayaqda saxlamaqdır. Belə görünür ki, bunun üçün hakimiyyət ianə toplantısına hazırlaşır, ölkə iqtisadiyyatını "qorumaq" üçün yeni bir fond yaratmağa çalışır.

"Lragir" saytı ölkədəki siyasi partiya rəhbərlərinə müraciət ünvanlayaraq, onları ölkədə milli konsensus yaratmağa çağırıb. Ermənistan mediasına istinad edən sayt ötən gün bir neçə erməni iqtisadçısının iqtisadi məsələlərlə bağlı qapalı iclas keçirdiyini bildirsə də, bunun Ermənistan iqtisadiyyatı üçün heç bir "təhlükəsizlik yastığı" yaratmayacağına əmindir.

Bildirilir ki, "təhlükəsizlik yastığı" kimi başa düşülən fond erməni siyasi partiyaları və varlı insanlar tərəfindən yaradılmalıdır. Amma sual olunur - yaradılacaqmı? Fövqəladə vəziyyət şəraitində ölkədə keçiriləcək referendumun təxirə salınması milli konsensusun təşəkkül tapmasını asanlaşdıra bilməyəcək.

Bütün bunlar ondan xəbər verir ki, Ermənistanı qarşıdakı dövrdə daha böyük böhran gözləyir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Beynəlxalq aləm

## Çin ABŞ-ın böyük qəzetlərinin akkreditasiyasını ləğv etdi




Çin "The Wall Street Journal", "New York Times" və "Washington Post" qəzetlərinin jurnalistlərinin fəaliyyəti üçün verilmiş akkreditasiyanı geri çağırmışdır. Bu barədə Xarici İşlər Nazirliyi məlumat vermişdir. Akkreditasiyalar on gün müddətində təhvil verilməlidir.

Bundan əlavə, sözükeçən mətbu orqanlar, habelə "The Voice of America" və "Time" Çinin hüquq mühafizə orqanlarına maliyyələşdirmə, əməkdaşlar və onların ölkədə fəaliyyəti barədə hesabat təqdim etməlidir.

Bu tədbirlər ABŞ-ın Çin dövlət media orqanlarının, o cümlədən "Sinxua" agentliyinin və "China Global Television Network" telekanalının əməkdaşlarını xarici agentlərə bərabər tutmaq qərarına cavabdır. İndi bu KİV-in ABŞ bürolarında əvvəlki 160 əvəzinə 100-dək Çin vətəndaşını işə qəbul etməsinə icazə verilmişdir. Onlar həmçinin satınalmalar və maliyyələşdirmə barədə hesabat təqdim etməlidirlər.

ABŞ-ın dövlət katibi Mayk Pompeo Çinin cavab tədbirlərini tənqid etmişdir. O bildirmişdir ki, ÇXR-in dövlət KİV-ini ABŞ-ın müstəqil nəşrləri ilə müqayisə etmək olmaz. Pompeo əmindir ki, Pekinin qərarı mətbuat azadlığını məhdudlaşdırır.

## Aİ sərhədlərini əcnəbilərin üzünə bağladı



Yaxın 30 gün ərzində Avropa İttifaqına (Aİ) yalnız Avropa vətəndaşları və onların ailə üzvləri, Böyük Britaniya, İslandiya, Lixtenşteyn, Norveç və İsveçrə vətəndaşları, habelə Aİ-də yaşamaq hüququ olan şəxslər daxil ola bilərlər. Bu barədə Almaniya Kansleri Angela Merkel məlumat vermişdir.

Qadağa azı 30 gün müddətinə tətbiq olunur və dərhal qüvvəyə minir. Almaniyanın Daxili İşlər naziri Horst Zeyehoferin dediyinə görə, üçüncü ölkələrin nümayəndələrinin girişinə ancaq "təxirəsalınmaz" hallarda icazə veriləcək.

Eyni zamanda Merkel vurğulamışdır ki, yüklərin və malların sərhəddən sərbəst keçməsini təmin etmək vacibdir. Onun dediyinə görə, hazırda sərhəddə bəzi çətinliklər var. Kansler həmçinin qeyd etmişdir ki, işə getmək üçün müntəzəm olaraq sərhədi keçən şəxslər problemlə üzləşməməlidirlər.

## İraq ABŞ-dan BMT-yə şikayət etdi



İraq hökuməti ABŞ aviasiyasının iranpərəst "Həşdi-Şəəbi" qruplaşmasının mövqelərinə endirdiyi aviasiya zərbələrinə cavab olaraq ABŞ-dan BMT-yə şikayət etmişdir. Bu barədə "Anadolu" agentliyi xəbər verir.

İraq Xarici İşlər Nazirliyinin mətbuat katibi Əhməd Səhhafın dediyinə görə, müvafiq şikayət birbaşa BMT Təhlükəsizlik Şurasına təqdim edilmişdir. O vurğulamışdır ki, amerikalıların İraqdakı missiyası təhlükəsizlik qüvvələri və ordunu silahlandırmaqdan, onlara təlim verməkdən ibarətdir. "Həşdi-Şəəbi"nin obyektlərinin vurulması isə təxribatdır.

Səhhafın dediyinə görə, ABŞ-ın hərəkətləri məsuliyyətsizlikdir və hüquqi əsasdan məhrumdur.

Xatırladaq ki, ABŞ aviasiyası martın 13-də "Həşdi-Şəəbi"nin İraqın Babil, Kərbəla, Səlaheddin və Ənbar şəhərlərindəki obyektlərini vurmuşdur. Bombardmana həmçinin "Kətaib Hizbullah" qruplaşmasının mövqeləri məruz qalmışdır.

## Türkiyədə koronavirusdan ilk ölüm halı təsdiqləndi



Türkiyədə yeni tipli koronavirusdan ilk ölüm halı qeydə alınmışdır. Bu barədə ölkənin Səhiyyə naziri Fəxrəddin Qoca məlumat vermişdir.

Nazirin dediyinə görə, vəfat etmiş vətəndaşın 89 yaşı var idi. Onu Çinə səfərdən qayıtmış işçisi yoluxdurmuşdur.

Qoca bildirmişdir ki, Türkiyədə COVID-19-a yoluxanların sayı 98 nəfərdir. Nazir xəstəliyin profilaktikası tədbirlərinə ciddi riayət etməyin vacibliyini vurğulamışdır.

## Braziliyada yüzlərlə məhbus həbsxanadan qaçdı



COVID-19-a qarşı tətbiq olunmuş tədbirlərə görə Braziliya həbsxanasından yüzlərlə məhbus qaçmışdır. Söhbət yarıaçıq tipli həbsxanalardan gedir. Qaydaya əsasən, belə həbsxanalarda məhbuslar müəssisəni tərk edə bilərlər. Lakin koronavirusun yayılması ilə əlaqədar yerli hakimiyyət orqanları məhbusların islah müəssisələrindən çıxmasını müvəqqəti olaraq qadağan etmişdir.

Son məlumata görə, polis 170-ə yaxın məhbusu geri qaytara bilmişdir. 1000-dək məhbus hələ də azadlıqdadır.



## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti dəftərxana və təsərrüfat mallarının satın alınması üzrə keçirilən *açıq tenderə dəvət edir*

Tender 1 LOT üzrə keçirilir:

Tender iştirakçılarına təklif edilir ki, https//www.etender.gov.az dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlarına və təcrübəyə malik olmalıdırlar.Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı : 200 (iki yüz) manat**

**Satınalan təşkilat: Dövlət Məşğulluq Xidməti**
**VÖEN: 1300144711**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**KOD: 210005**
**Müxbir hesabı: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT CTREAZ22**
**H/HESABI: AZ18CTRE00000000000004788202**

**Büdcə gəlirlərinin təsnifat kodu - 142330**
**Büdcə səviyyəsinin kodu - 7**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. *İddiaçının vergi şəhadətnaməsinin və nizamnaməsinin təsdiq edilmiş surəti;*
2. *İddiaçının bank rekvizitləri haqqında məlumat;*
3. *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
4. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
5. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş mənfəət vergisi bəyannaməsinin surəti;*
6. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
7. *Bənzər layihələr üzrə iş təcrübəsi haqqında məlumat;*
8. *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
9. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
10. *Digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tenderlə bağlı sualları portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **15 aprel 2020-ci il saat 17:00-dək,** tender təklifi və bank təminatını isə **23 aprel 2020-ci il saat 17:00-dək** portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **24 aprel 2020-ci il saat 15:00-da** açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə portal vasitəsilə tanış ola bilərlər.

**Qeyd.** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər prosedurlar yalnız elektron qaydada portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## "Azərsu" ASC-nin daxili vəsaiti hesabına elektron satınalma vasitəsilə diyircəkli yastıqların satın alınması üzrə *açıq tender elan edir*

Malgöndərənlər (podratçılar) https://www.etender.gov.az - dövlət satınalmalarının vahid internet portalından tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: **Tender predmeti üzrə oxşar təcrübənin mövcudluğu (son 3 (üç) il üzrə oxşar mal-materialların təchizatı və həcmi üzrə icra edilmiş ən azı 2 (iki) müqavilə) və ən aşağı qiymət təklifi.**

Malgöndərənlər (podratçılar) aşağıdakı məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra dövlət satınalmalarının vahid internet portalından əldə edə bilərlər.

**Tenderdə iştirak haqqı 200 manatdır.**
**Təşkilat: "Azərsu" ASC**
**VÖEN: 9900001751**
**Bank: "Kapital Bank"ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**S.W. İ. F. T. BIK: AİİBAZ2X**
**H/h: AZ65AİİB 33070019441100216111**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *malgöndərənlərin (podratçıların) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayışı;*
- *malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **14 aprel 2020-ci il saat 16:00-a** qədər, tender təklifi və bank təminatını isə **22 aprel 2020-ci il saat 18:00-a** qədər dövlət satınalmalarının vahid internet portalı vasitəsilə təqdim etməlidirlər.

Elektron satınalmanın açılışı **23 aprel 2020-ci il saat 16:00-da** dövlət satınalmalarının vahid internet portalında həyata keçiriləcəkdir.

***Tender komissiyası***

## "Azərsu" ASC daxili vəsaiti hesabına elektron satınalma vasitəsilə generatorların əsaslı təmiri işlərinin satın alınması üzrə *açıq tender elan edir*

Malgöndərənlər (podratçılar) https://www.etender.gov.az - dövlət satınalmalarının vahid internet portalından tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: **Tender predmeti üzrə oxşar təcrübənin mövcudluğu (son 3 (üç) il üzrə oxşar mal-materialların təchizatı və həcmi üzrə icra edilmiş ən azı 2 (iki) müqavilə) və ən aşağı qiymət təklifi.**

Malgöndərənlər (podratçılar) aşağıdakı məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra dövlət satınalmalarının vahid internet portalından əldə edə bilərlər.

**Tenderdə iştirak haqqı 200 manatdır.**
**Təşkilat: "Azərsu" ASC**
**VÖEN: 9900001751**
**Bank: "Kapital Bank"ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**S.W. İ. F. T. BIK: AİİBAZ2X**
**H/h: AZ65AİİB 33070019441100216111**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *malgöndərənlərin (podratçıların) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayışı;*
- *malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **15 aprel 2020-ci il saat 16:00-a** qədər, tender təklifi və bank təminatını isə **23 aprel 2020-ci il saat 18:00-a** qədər dövlət satınalmalarının vahid internet portalı vasitəsilə təqdim etməlidirlər.

Elektron satınalmanın açılışı **24 aprel 2020-ci il saat 16:00-da** dövlət satınalmalarının vahid internet portalında həyata keçiriləcəkdir.

***Tender komissiyası***

## "Azərişıq" ASC 1 fazalı elektron sayğacların və Smart abonent kartlarının satın alınması məqsədilə *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**LOT-1.** 1 fazalı elektron sayğacların və Smart abonent kartlarının satın alınması

**İştirak haqqı - 400 manat**

**"Azərişıq" ASC**
**Hesab №: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab №: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs - Zaur Abdullayev (telefon: 440-39-93 daxili (28-91)) zaur.abdulla @azerishiq.az

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **17 aprel 2020-ci il saat 16:00-a** qədər, tender təklifi və bank təminatı sənədlərini **27 aprel 2020-ci il saat 16:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **28 aprel 2020-ci il saat 16:00-da** açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**Qeyd:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## BİLDİRİŞ

"Azərpoçt" MMC tərəfindən Portal vasitəsilə təqdim edilən pin zərflərin satın alınması ilə əlaqədar elan olunmuş tender proseduru podratçının müraciəti əsasında ilkin tələb olunan sənədlərin qəbulu vaxtı 13.04.2020-ci il saat 10:00-dək, tender təklifi və bank təminatı sənədlərinin qəbulu isə 21.04.2020-ci il saat 10:00-dək uzadılmışdır. İddiaçıların təklifləri 22.04.2020-ci il saat 10:00-da açılacaqdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Mərkəzi Bankı *kotirovka sorğuları elan edir*

1. Azərbaycan Respublikasının Mərkəzi Bankının inzibati binalarında yerləşən Avtomatlaşdırılmış Telefon Stansiyalarına servis xidmətinin satın alınması.
2. Azərbaycan Respublikasının Mərkəzi Bankı üçün mərkəzdənqaçma su nasosunun satın alınması.

Kotirovka sorğuları üzrə əsas şərtlər toplusunu əlaqələndirici şəxsdən əldə etmək olar.

Kotirovka sorğuları üzrə möhürlənmiş və imzalanmış təklif zərfləri ən geci 13 aprel 2020-ci il saat 18:00-dək əlaqələndirici şəxs tərəfindən qəbul ediləcək və 14 aprel 2020-ci il saat 10:00-da Mərkəzi Bankın inzibati binasında açılacaqdır.

Kotirovka sorğuları üzrə əlaqələndirici şəxs - Elnur Musayev, telefon - 493-11-22 (daxili 490).

***Tender komissiyası***

## BİLDİRİŞ

"Azərbaycan Respublikasının Mərkəzi Bankına dəvət olunmuş ekspertlər üçün mehmanxana xidmətlətinin satın alınması" ilə bağlı kotirovka sorğusu Satınalmalar komissiyasının 17 mart 2020-ci il tarixli qərarına əsasən "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinə müvafiq olaraq baş tutmamış hesab edilmişdir.

***Satınalmalar komissiyası***

## Bakı Şəhər İcra Hakimiyyəti Bakı Şəhər Məktəbəqədər Təhsil Müəssisələri və Uşaq Evləri İdarəsi uşaq evləri üçün tibb ləvazimatlarının kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan şəxslər 492-53-06 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka prosedurunda iştirak etmək üçün sənədlər 19 mart 2020-ci il saat 17:00-a qədər qəbul olunur.

***Tender komissiyası***

## "Mingəçevir Şəhər Mərkəzi Xəstəxanası" Publik Hüquqi Şəxsi 2020-ci ilin 1-ci rübü üçün *kotirovka sorğusu elan edir*

1. Nəqliyyat vasitələrinin əsaslı təmiri maddəsi üzrə
2. Möhür və ştampların alınması
3. Camaşırxa avadanlıqlarının ehtiyat hissələrinin alınması və təmiri

Kotirovka sorğusu üzrə müraciətlər 29.03.2020-ci il saat 13:00-dək qəbul edilir.

**Zərflərin açılması: 30.03.2020-ci il saat 14:00**
**Ünvan: Mingəçevir şəhəri, 20 Yanvar küçəsi, 12**
**Telefon nömrəsi: +99455 500-45-99; +99455 204-15-20**

***Tender komissiyası***

# "Azərişıq" ASC xidmətlərini onlayn şəkildə davam etdirəcək

**"Azərişıq" ASC-nin mətbuat xidmətinin verdiyi məlumata görə "Azərişıq" ASC tərəfindən vətəndaşlara göstərilən bütün növ xidmətlər onlayn şəkildə davam etdirilir.**

Artıq bu gündən etibarən "Facebook" və "Instagram" vasitəsilə canlı bağlantı, eləcə də "Whatsapp" üzərindən müraciətlərin qəbulu həyata keçirilir. Cari ayın 29-dək Səhmdar Cəmiyyət tərəfindən onlayn müraciətlərin qəbuluna daha çox üstünlük veriləcəkdir. Əsasən yeni "Whatsapp" nömrəsi üzərindən "Azərişıq" ASC-nin göstərdiyi bütün xidmətlər barəsində məlumat ala bilərsiniz. Bununla yanaşı, sosial şəbəkələrdə daha operativ xidmət göstərmək üçün bayram günləri ilə əlaqədar olaraq rəsmi "Facebook" və "Instagram" səhifələrində canlı bağlantı həyata keçiriləcək. Vətəndaşların hər hansı bir sualı yaranarsa, suallarını sosial şəbəkələr vasitəsilə canlı bağlantı zamanı ünvanlaya bilərlər. Həmçinin "ASAN xidmət" və "ASAN Kommunal" mərkəzlərində yalnız bir pəncərədə ən zəruri xidmətlər göstəriləcəkdir. Vətəndaşlarımız yaranmış suallarını və müraciətlərini təyin olunmuş "ASAN xidmət" və "ASAN Kommunal" mərkəzləri ilə yanaşı, "199" Çağrı Mərkəzi, "Facebook", "Instagram", info@azerishiq.az və "Azərişıq" ASC-nin "Whatsapp" nömrəsinə də yönləndirə bilərlər.

**Whatsapp: +99477 217-67-62**
**Saytımız: https://www.azerishiq.az/**



**Facebook: Azərişıq ASC**



**Instagram: Azərişıq ASC**

## Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən I İslam Ölkələri Xalq Çalğı Alətləri və III Beynəlxalq Aşıq Festivallarının və Elmi simpoziumun təşkili işlərinin satın alınması ilə əlaqədar *açıq tender elan edir*

**Tender 1 (bir) LOT üzrə keçirilir:**

**Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən I İslam Ölkələri Xalq Çalğı Alətləri və III Beynəlxalq Aşıq Festivallarının və Elmi simpoziumun təşkili işlərinin satın alınması**

Tender iştirakçılarına təklif edilir ki, http://etender.gov.az/ dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**Əlaqələndirici şəxs: Seymur Həsənov**
**Email: seymur.hasanovs@gmail.com**
**Əlaqə telefonu: 012 498 19 94**
**İştirak haqqı: 250 (iki yüz əlli) manat**
**Hesab: AZ78CTRE00000000000002178501**
**VÖEN: 1700015381**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**Kodu: 210005**
**VÖEN: 1401555071**
**M/H: AZ41NABZ01360100000000003944**
**S.W.İ.F.T: CTREAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *podratçının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar öz təkliflərini əsas şərtlər toplusunda göstərilən müddəalara uyğun olaraq hazırlamalı, tenderdə iştirak etmək üçün tələb olunan sənədləri **17 aprel 2020-ci il saat 11:00-a** qədər, tender təkliflərini isə **27 aprel 2020-ci il saat 11:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

Zərflər **28 aprel 2020-ci il saat 11:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun fondun aparatının istifadəsində olan katriclərin dolumunun təmin edilməsi işlərinin satın alınması məqsədilə etender.gov.az saytında 02.03.2020-ci il, "Azərbaycan" qəzetində 03.03.2020-ci il tarixdə elan etdiyi kotirovka sorğusunda iddiaçılardan daxil olmuş təkliflərin qiymətləndirilməsi həyata keçirilmişdir. Qiymətləndirmənin nəticəsində "COPY" MMC qalib müəyyən edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

"Azərpoçt" MMC tərəfindən tabeli poçt müəssisələrinin təminatı üçün plastik kartlarının satın alınması ilə bağlı 19 fevral 2020-ci il tarixdə elan edilmiş açıq tender prosedurunun davamından Azərbaycan Respublikasının "Dövlət satınalmaları haqqında" Qanununun 11.1-ci maddəsinə əsasən (tender təklifi vermiş iddiaçıların sayı üçdən az olduqda) imtina edilmişdir.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən poçt (kuryer) xidmətlərinin cəlb edilməsi ilə bağlı "Azərbaycan" qəzetinin 29 yanvar 2020-ci il tarixli nömrəsində elan edilmiş və elektron satınalma prosedurları çərçivəsində keçirilmiş açıq tender üzrə Tender komissiyasının 28 fevral 2020-ci il tarixli qərarına əsasən "Alib Express" MMC qalib elan edilmişdir.

Qalib şirkətlə müvafiq satınalma müqavilələri imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

"Azərbaycan" qəzetinin 28.01.2020-ci il tarixli nömrəsində dərc edilmiş altı LOT-dan ibarət tenderlə əlaqədar Tender komissiyasının 10 mart 2020-ci il tarixli qərarı ilə Azərbaycan Respublikası Mərkəzi Bankının Yevlax Ehtiyat Mərkəzinin inzibati binası üçün hava ilə soyudulan su soyutma qrupu (çiller) avadanlığının alınması və quraşdırılması işlərinin satın alınması (LOT 3) üzrə "Avandsis Enerji" MMC, Azərbaycan Respublikasının Mərkəzi Bankı üçün dəftərxana mallarının satın alınması (LOT 4) və Azərbaycan Respublikasının Mərkəzi Bankı üçün təsərrüfat mallarının satın alınması (LOT 6) üzrə isə "Ofis Aləmi" MMC qalib elan edilmişdir.

Qalib şirkətlərlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi konfederasiyanın prezidentinin müşaviri Həmid Bağırova bacısı

ŞÖVKƏT XANIMIN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Gəncə Dövlət Universitetinin rektoru Yusif Yusibov və professor-müəllim heyəti Gəncə Şəhər İcra Hakimiyyəti başçısının müavini Vəfa Abbasovaya anası

TİRANA XANIMIN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 6955
Sifariş 929
Qiyməti 40 qəpik